www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 noyabr 2014-cü il Çərşənbə axşamı № 282 (5991) Qiymәti 40 qəpik

**Xəbər**

## Bələdiyyə seçkilərinə qatılan müxalifət partiyalarını peşman etdilər

yazısı səh.12-də

**Gündəm**

### Müsavat Divanı Səxavət Əlisoyu partiyadan çıxardı



Töhmət alan Əlövsət Talışxanlı isə Müsavatdan istefa verdi; partiya 23 noyabrda ümumrespublika müşavirəsi keçirəcək

yazısı səh.5-də

### Azərbaycanın 5,5 milyard xarici borcu var

yazısı səh.4-də

### Qubad İbadoğluna qarşı yeni iddia, qarşılıqlı ittihamlar...

yazısı səh.5-də

### Rövşən Canıyev Aşurada Lənkəranda olub

yazısı səh.2-də

### 11 partiya sədrinin piket keçirməsinə icazə verilmədi

yazısı səh.6-da

### "AAAF Park"ın sahibi bütün suallara aydınlıq gətirdi

yazısı səh.10-da

### Müdafiə Nazirliyindən Ermənistanın hərbi-siyasi rejiminə sərt cavab

yazısı səh.13-də

### Balakəndə yol polisinin boğazını kəsdilər

yazısı səh.14-də

### Binəqədinin icra başçısının təpələrin arxasında gizlətdiyi zibilləri

yazısı səh.12-də

### Həbsxanada aclıq edən keçmiş "OMON"-çunun vəziyyəti ağırlaşdı

yazısı səh.15-də

### Hesablama Palatası Kürdəmirdə yol tikintisində korrupsiya aşkarladı

yazısı səh.14-də

### Ərdoğanın Amerikanın kəşfi ilə bağlı dedikləri ortalığı qarışdırdı

yazısı səh.15-də

## Yəhudi biznesmen haqda yeni şok məlumatlar

# ABBAS ABBASOV "AST TELMAN"I YARIYOLDA QOYDU

Milyarderin şirkətini borc "əridir"; Azərbaycanın sabiq vitse-primyeri rəhbərlərindən biri olduğu şirkətə daha getmir və tədbirlərdə Telman İsmayılovla birgə görünmək istəmir; Beynəlxalq Bank qalmaqallı iş adamının borclu olduğunu təsdiqlədi...




yazısı səh.4-də

## Əli İnsanov türmədə Tofiq Yaqublunu müalicə edir

**Başqan müavini Müsavatdakı gərginliklə bağlı çağırış edib:** "Partiya rəhbərliyi qəbul etməlidir ki, bu qədər adamla hədə tonunda danışmaq vəziyyəti ancaq pisləşdirə bilər"

yazısı səh.3-də



### 2015 seçkilərində mandatın biri bronlanır - Anar Məmmədova veriləcək

yazısı səh.2-də



### Pənah Hüseyn Əli Həsənovla görüş təşəbbüsünün detallarından danışdı

yazısı səh.6-da



### Eldar Namazov illərlə saxladığı sirri "Yeni Müsavat"a açdı

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# "Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında zəruri təşəbbüslərlə çıxış edir"



**"Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli-tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni həyata keçirdiyimiz din siyasətinin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin vacib amili kimi dəyərləndiririk".**

APA-nın məlumatına görə, bu sözlər Azərbaycan prezidenti İlham Əliyevin "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubda yer alıb.

Dövlət başçısı qeyd edib ki, son illər sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunması, dini tolerantlığın inkişafı kimi humanitar problemlərin ənənəvi müzakirə məkanına çevrilən Azərbaycanda etnik-mədəni müxtəlifliyin, multikultural, tolerant mühitin qorunması və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir:

"Razılıq hissi ilə qeyd etmək istərdim ki, bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur".

# Bu gün parlamentdə büdcə müzakirələri başlayır



**Noyabrın 18-də Azərbaycan Respublikasının 2015-ci il üçün büdcə zərfi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq. Parlamentin mətbuat xidmətindən verilən məlumata görə, büdcə zərfinin müzakirəsi noyabrın 19-u, 20-i və 21-də də davam edəcək. Büdcə zərfinə "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanunları, Milli Məclisin və Hesablama Palatasının 2015-ci il üçün xərclər smetalarını, o cümlədən "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2015-ci il büdcəsi haqqında" qanunu daxildir.**

2015-ci il icmal büdcəsinin gəlirləri 20 mlrd. 716,8 mln. manat, xərcləri 25,911 mlrd. manat proqnozlaşdırılır. Layihədə qeyd olunur ki, 2014-cü illə müqayisədə icmal büdcənin gəlirləri 1 mlrd. 269,1 mln. manat və ya 5,8% az, xərcləri isə 1 mlrd. 467,1 mln. manat və ya 6% çox nəzərdə tutulub. Büdcənin gəlirlər hissəsinin yarıdan çoxu Dövlət Neft Fondunun (ARDNF) hesabına təmin ediləcək. Gələn il ARDNF-dan dövlət büdcəsinə 10,388 mlrd. manat vəsait ayrılması nəzərdə tutulur. Bundan başqa, Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7,112 mlrd. manat, Dövlət Gömrük Komitəsinin xətti ilə natural ifadədə 1,59 mlrd. manat daxilolma proqnozlaşdırılır. Layihədə dövlət büdcəsinin kəsiri 1,662 mlrd. manat nəzərdə tutulur. Ekspertləri daha çox narahat edən neftin qiymətinin yuxarı həddə - 90 dollar - götürülməsidir.

❑ ELŞAD

# Rövşən Canıyev Aşurada Lənkəranda olub



**Məşhur avtoritet Rövşən Canıyev (Lənkəranski) Lənkəranda olub. "Qafqazinfo"ya daxil olan məlumata görə, Lənkəranski noyabrın 4-də doğulduğu şəhərdə keçirilən Aşura mərasimində iştirak edib.**

Qanuni oğrunu şəhərin Kiçik Bazar adlanan ərazində ətrafında 4-5 mühafizəçisi ilə görüblər. Qeyd edək ki, Lənkəranski ilə yanaşı anası, həyat yoldaşı və uşaqları da Aşura mərasiminə qatılıb.

Xatırladaq ki, Rövşən Canıyev "oğru dünyası"nda böyük nüfuz sahibidir və "Rövşən Lənkəranski" kimi tanınır. O, ilk dəfə 1996-cı ildə 2 il müddətində həbs edilib. Rövşən Caniyev atasının qatilini elə məhkəmə zalındaca güllələyib. Səbail Rayon Məhkəməsinin 4 mart 1997-ci il tarixli qərarı ilə cəzadan şərti azad olunub. 2000-ci ilin iyulunda yenidən məsuliyyətə cəlb olunub. Qəsdən adam öldürməyə cəhd və qanunsuz odlu silah, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama maddəsi ilə ittiham olunub. Lakin məhkəmə onun barəsində psixi müalicəyə göndərilməsi barəsində qərar çıxarıb. 2001-ci ildə Sabunçu Rayon Məhkəməsinin qərarı ilə R.Canıyev cinayət məsuliyyətindən azad edilib.

# 2015 seçkilərində mandatın biri bronlanır - Anar Məmmədova veriləcək

"Belə görünür ki, Ziya Məmmədov lazımi adamlarla danışıb və 2015-ci il seçkilərində paylanılacaq mandatlardan birini götürüb"



**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, iş adamı Anar Məmmədovun gələnilki seçkidən Ucardan deputat seçilməsi üçün rayonda hazırlıq başlayıb. Bu barədə musavat.com-a məlumatlı mənbə xəbər verib. Onun sözlərinə görə, bundan ötrü öncə rayonun icra hakimiyyəti başçısının, Yaşar Məmmədovun dəyişdirilməsi, onun yerinə daha "bacarıqlı" birinin gətirilməsi gözlənilir. Həmin şəxs ya Göycayın hazırkı bacısı Mənsur Məmmədov, ya da Ziya Məmmədovun deputat qardaşı Elton Məmmədov olacaq.**

Hələlik bilinən odur ki, Elton Məmmədov 2015-ci il seçkilərində deputatlığa namizəd olmayacaq. 2010-cu il seçkilərində onun öz mandatını A.Məmmədova güzəştə getməməsi onsuz da Məmmədovlar klanında söz-söhbət yaradıb, hətta əmi və qardaşoğlunun o vaxtdan bəri danışmadıqları bildirilir. Ona görə də bu dəfə E.Məmmədovun deputatlıqdan imtina edəcəyi, icra hakimiyyəti strukturunda yerləşmək istəyəcəyi güman olunur.

Ucardakı mənbə onu da qeyd edir ki, yerli camaat istənilən başqa bir adamın Ucara İH başçısı vəzifəsinə gətirilməsinə razıdırlar, təki E.Məmmədov Ucarda başçı olmasın. Hazırkı deputata bu aqressiyanın səbəbi onun şəxsi xarakteri ilə, iş üslubuyla bağlıdır.

"Bəs Anar Məmmədov Ucardan deputat seçilə bilərmi" sualına cavab verən mənbə bildirir ki, bütün Ucar Məmmədovlar klanının əlində olduğundan bu, texniki işdir, namizədliyini verəcəksə, A.Məmmədov problemsiz mandat alacaq, ancaq bundan ötrü ölkə rəhbərliyinin xeyir-duası lazımdır. "Belə görünür ki, Ziya Məmmədov lazımi adamlarla danışıb və 2015-ci il seçkilərində paylanılacaq mandatlardan birini götürüb".

❑ Musavat.com



# Tahir İmanov hansı nazirin bostanına zibil atdı?

**Bu günlərdə Space TV-də yayımlanan "Gülüş yığması" verilişinin sonunda Tahir İmanov qalmaqallı aforizm səsləndirib.**

"Planeta Parni iz Baku" ŞHK teatrının bədii rəhbərinin sözlərinə görə, "İndiki zəmanədə zibilə düşmək asan məsələdir, amma nazirin qəbuluna düşmək qeyri-mümkündür". Heç şübhəsiz, Tahir İmanov efirdən bu cür aforizm səsləndirməklə hansısa nazirin bostanına daş atıb.

"Yeni Müsavat"ın əməkdaşı mövzu ilə əlaqədar T.İmanovla əlaqə saxlasa da o, bu haqda danışmaq istəmədiyini bildirdi.

Qeyd edək ki, son zamanlar İmanov qardaşları və onların komandaları məmurların, nazirlərin diqqətsizliyindən narazılıq edir, eyhamlar vururlar. Bu yaxınlarda Tahir İmanovun mətbuata müsahibəsində nazirlərin qəbuluna düşə bilməməsindən giley-güzar etmişdi. Demişdi ki, əvvəlki illərdən fərqli olaraq indi yüksək rütbəli məmurların, nazirlərin nə qəbuluna düşə bilirlər, nə də onlarla telefonla danışmaq mümkündür. Görünür, "Planeta Parni iz Baku" teatrının bədii rəhbəri onu "iqnor" edən hansısa nazirdən qisasını bu cür almaq qərarına gəlib...

❑ XALİDƏ

# Girovlarla bağlı aksiyaya Türkiyədən dəstək



**Qarabağ Azadlıq Təşkilatının (QAT) keçirdiyi aclıq aksiyası 4 gündür ki, davam edir. Aksiyaya Türkiyədən də dəstək gəlib. QAT-ın Türkiyə nümayəndəliyi aksiyaya dəstək bəyanatı verib. Belə ki, nümayəndəliyin rəhbəri Cəfər Dal aksiya iştirakçılarına baş çəkmək üçün Bakıya gəlib. Cəfər bəylə Türkiyədən gələn media nümayəndələri aclıq aksiyası ilə bağlı süjetlərdən çəkiblər. "Vizion TV" geniş reportaj hazırlayıb. QAT-ın, KXCP-nin və AXCP-nin Ağsu rayon şöbələri birgə dəstək bəyanatı veriblər. QAT-ın Şəki şöbəsinin sədri Elxan Rəhimli qoşulduğu aclıq aksiyasını davam etdirir. Qurumun mətbuat xidmətinin məlumatına görə, ANS televiziya və radiosu aclıq edənlərlə bağlı reportaj hazırlayıb və yayıblar. Aksiyanın ilk günündən "Yeni Müsavat" qəzeti, APA informasiya agentliyi davamlı informasiya dəstəyi verib.**

Aclıq aksiyasında iştirak edən QAT sədri Akif Nağı bildirib: "Aksiya iştirakçılarının vəziyyəti normaldır, həkimlər nəzarət edirlər, ciddi narahatçılıqları yoxdur. Bizi narahat edən beynəlxalq təşkilatların və hakimiyyətin münasibətidir, hələ heç bir reaksia verməyiblər. Biz beynəlxalq təşkilatlara, birinci növbədə BMT-yə müraciət edirik ki, nə üçün bu cür radikal aksiyaya əl atmağa, öz sağlamlığını risqə atmağa məcbur olan insanların tələblərinə heç bir reaksiya vermirsiniz? Bu təşkilatların hərəkətləri bizi məcbur edəcək ki, onları oturduqları dəbdəbəli binalardan daş-qalaq edib çıxardaq və ölkədən qovaq. Bu cür ikiüzlülük, ədalətsizlik olmaz. Nə üçün Ermənistanın başqa bir dövlətə qarşı təcavüzünə reaksiya vermirlər? Necə ola bilər ki, Ermənistanın rəhbərləri heç nə olmamış kimi, Azərbaycanın ərazilərinə gəlirlər, burada görüşlər, hərbi təlimlər keçirirlər? Onlar bunu hansı haqla edirlər? Nə üçün beynəlxalq təşkilatlar buna son qoymaq istəmirlər? Biz Azərbaycan hakimiyyətini də ittiham edirik. Nə üçün bu rəzalətə, girovlarımıza zülm edilməsinə dözürlər. Artıq əməli işə keçmək lazımdır".

Aksiya davam edir.

❑ ELŞAD

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



# Bəxtiyar Hacıyev Azərbaycandan getdi

**Gənc fəal Bəxtiyar Hacıyev Azərbaycandan gedib. Bu barədə facebook səhifəsində o özü bildirib. "Evdə əşyaları toplamaq, yaxınlar və dostlarla bir çox xoş xatirələri arxada buraxmaq, "bəlkə bu dağlara bir də gəlmədim" əhvalında şəhərə baxmaq asan deyildi. Kiminsə haqqı qalıbsa, haqqını halal etsin, bilmədən xətrinə dəymişəmsə, üzrlü saysın", - deyə Hacıyev yazıb.**

Virtualaz.org-un məlumatına görə, blogger hazırda yunan şəhəri Spartadadır.

O, qafqazinfo.az-a verdiyi müsahibəsində deyib: "Hazırda Avropa ölkələrindən birindəyəm. Amma bir şeyi qeyd edim ki, gəlişim nə mühacirət, nə də siyasi sığınacaq axtarışı ilə bağlı deyil. Mən Azərbaycana bağlı insanam və bağlı da qalacam. Mənim məqsədim sadəcə Azərbaycanda müsbət dəyişikliklər, demokratik cəmiyyətin qurulması, hüququn aliliyinə dayanan dövlətin formalaşdırılması, vətəndaşlarımızın rifahı, gənclərimizin elm, təhsil, iş imkanlarının artırılmasıdır. Harada olmağımdan asılı olmayaraq, bu istiqamətdə işləri davam etdirməyə çalışacam... Azərbaycanı, ailəmi, dostlarımı, yaxınlarımı və insanlarımızı tərk etmək asan deyil və heç kim öz xoşu ilə öz ölkəsini tərk etmək istəməz. Azərbaycanla bağlı qapını bağlamıram. Nə vaxt Azərbaycanda faydalı olacağıma inansam, bunun üçün normal mühit olduğunu görsəm, qayıdacam".

# DİN-in regional şöbəsinin rəisi işdən çıxarıldı

**Daxili işlər orqanlarında daha bir kadr dəyişikliyi olub. APA TV-nin məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən, nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin cənub regional şöbəsinin rəisi Qabil Tağıyev tutduğu vəzifədən azad edilib. Nazirin digər bir əmri əsasında Nizami Rayon Polis İdarəsinin rəis müavini İzzət Əsgərov tutduğu vəzifədən azad edilərək Baş Narkotiklərlə Mübarizə İdarəsinin cənub regional şöbəsinin rəisi vəzifəsinə təyin edilib. Qeyd edək ki, İzzət Əsgərov ötən ay nazirin müvafiq əmri ilə töhmət alan rəis müavinlərindən biridir.**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

Yeni MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# Günün içindən



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Siyasi məhbus Tofiq Yaqublunun qızı Nigar Yaqublu bu günlərdə atası ilə telefonla danışıb. Danışıq zamanı Tofiq Yaqublu bildirib ki, 13 saylı cəzaçəkmə müəssisəsindən saxlanma şəraiti ilə bağlı heç bir şikayəti yoxdur. Amma səhhətində bəzi problemlər yaranıb. Eyni cəzaçəkmə müəssisəsində cəza çəkən keçmiş səhiyyə naziri, siyasi məhbus Əli İnsanov onu müalicə edir. Onlar boş vaxtlarında Ləmbəli və Borçalı xatirələrini bölüşürlər.**

# Əli İnsanov türmədə Tofiq Yaqublunu müalicə edir

## Başqan müavini Müsavatdakı gərginliklə bağlı çağırış edib: "Partiya rəhbərliyi qəbul etməlidir ki, bu qədər adamla hədə tonunda danışmaq vəziyyəti ancaq pisləşdirə bilər"

Nigar Yaqublunun musavat.com-a verdiyi məlumata görə, atası telefon danışığı zamanı qısa olsa da Müsavat Partiyasındakı, eləcə də müxalifət düşərgəsindəki vəziyyətlə bağlı öz fikirlərini bildirib. O deyib ki, qurultaydan sonra baş verənlər haqda çox məhdud informasiyası var. T.Yaqublu qızına bunları da deyib: "Həbsxanadakı iqtidar qəzetlərindəki qərəzli, böhtan dolu yazıları deşifrə edərək həqiqəti öyrənməyə çalışıram. Partiya daxilindəki vəziyyətdən çox narahatam. Malik olduğum məhdud informasiyaya əsaslanaraq, demək istəyirəm ki, tərəflər bütün addımlarında birinci növbədə partiya mənafeyini nəzərə almalıdırlar. Qurultaydakı seçkilərin nəticələri ciddi narazılıq doğursa da onları qəbul edib razılaşmaq lazımdır. Ancaq partiya rəhbərliyi durumun kritik olduğunu nəzərə alaraq, çox düşünülmüş addımlar atmalıdır. Bu bir reallıqdır ki, partiyada narazı tərəfin nisbəti təxminən yarı-yarıyadır. Ancaq nizamnamədə fraksiya haqqında heç nə yazılmadığını dəstəvuz edərək qarşı tərəfi pozuculuqda ittiham etmək səhv mövqedir. Narazı olanların fraksiya şəklində rəsmiləşdirilməsini o qədər də vacib saymıram. Məgər nizamnamədə Mərkəzi İcra Aparatı haqqında bir şey yazılmışdı? Amma bu qurum faktiki olaraq partiyanı idarə edirdi. Belə çıxır ki, nizamnamədə nəzərdə tutulmayan bir qurum yaradıb partiyanı idarə etmək olar, amma eyni fikirli adamların bir mövqedən çıxış etməsini sadəcə olaraq konstatasiya edən bir frazanı işlətmək olmaz. Axı xeyli partiya üzvünün bir mövqedə olması faktı ortadadır. Onsuz da onlar birgə fəaliyyət göstərirlər, toplaşaraq atacaqları addımları müəyyənləşdirir və uzlaşdırırlar. Tutaq ki, fraksiya yaradılması qadağan edildi, məgər həmin adamlar fikirlərini dəyişəcəklər? Qəbul etmək lazımdır ki, burada söhbət Mərkəzi İcra Aparatı kimi nizamnamədə nəzərdə tutulmayan nəsnənin yaradılmasından yox, artıq mövcud olan nəsnənin adlandırılmasından gedir. Bəlkə də fraksiyanı rəsmiləşdirib Müsavat Partiyasının növbəti ilkə imza atmasını təmin etmək olar. Mən bu fikri reallığı nəzərə alıb deyirəm. Ən yaxşısı o olardı ki, partiya daxilində tərəflərə bölünmə olmayaydı. Amma təəssüf ki, bu var. Partiya rəhbərliyi qəbul etməlidir ki, bu qədər adamla hədə tonunda danışmaq vəziyyəti ancaq pisləşdirə bilər. Çıxış yolu kimi demokratik ölkələrin parlamentlərində koalisiyon hökumətlərin yaradılması zərurətini və qaydasını göstərə bilərəm. Partiya rəhbərliyi əks tərəfi dialoqa çağırmalı və partiyadaxili konsensusu saxlayacaq şəkildə "portfelləri" bölüşdürməyi təklif etməlidir. Parlament seçkilərinə bir ildən də az vaxt qalır. Əgər partiyadaxili sülh əldə edilməsə, Müsavat Partiyasını seçkilərdə rüsvayçı məğlubiyyət gözləyir. İsa Qəmbərin belə bir vəziyyətdə susqun qalması doğru seçim deyil. O, nüfuzundan istifadə edərək, tərəfləri danışığa və barışığa dəvət etməlidir".



**"İsa Qəmbər belə bir vəziyyətdə nüfuzundan istifadə edərək, tərəfləri danışığa və barışığa dəvət etməlidir"**

**Nigar Yaqublunun dediyinə görə Tofiq bəy müxalifət düşərgəsi ilə bağlı da bəzi fikirlərini bildirib. O, Milli Şuranın siyasi məhbuslarla bağlı keçirdiyi mitinqi yüksək dəyərləndirib, belə tədbirlərə müsavatçıların da ciddi dəstək verməli olduğunu deyib. Müsavat Partiyası ilə Milli Şura arasındakı qarşıdurmanı çox mənasız və ziyanlı sayıb:** "Bu qüvvələr əməkdaşlıq etməyə məhkumdurlar. Bütün xalifət zəif və təsirsiz hala gəlib. Onlardan, hakimiyyəti cinayətkar əməllərindən çəkindirməyə, qanunlara əməl etməyə məcbur etməyi xahiş edirik. Əgər beynəlxalq təşkilatlar soruşsalar ki, əlavə olaraq siz özünüz özünüzü niyə məhv etməyə çalışırsınız? Nə cavab verərik? Bu iki qüvvə qabaqdan parlament seçkiləri gəldiyinin fərqində olmalıdırlar. Təsəvvür edin, onsuz da zəifləyib əldən düşmüş Müsavat Partiyası ilə AXCP eyni dairədən namizəd versələr, onları hansı biabırçı nəticələr gözləyir. Düzdür, indi-

enerjini irticaya qarşı yönəltmək əvəzinə, bir-birini gücdən və nüfuzdan salmağa yönəltmək, ancaq iqtidara sərf edir. Müxalifət olaraq, hakimiyyətin bizə qarşı qanunsuz əməllərindən beynəlxalq təşkilatlara şikayətlənirik. Əsaslandırırıq ki, məhvimizə yönəlmiş məhz belə qanunsuz əməllər nəticəsində müdən sıx əməkdaşlıq haqda danışmaq yersiz görünür, halbuki bu, çox vacibdir, amma elə etmək lazımdır ki, heç olmazsa, dairələrin bölünməsi razılığına gəlmək mümkün olsun. Biz dərk etməliyik ki, Müsavat Partiyası və AXCP dibi deşilmiş qayıqda dənizin ortasındadırlar. Sahilə çıxmaq üçün dayanmadan bir əlimizlə suyu qayıqdan çölə atmalıyıq, o biri əlimizlə avar çəkməliyik. Əgər bu işi buraxıb dalaşmağa başlasaq ikimizdə birlikdə dəryanın dibinə gedəcəyik".

**"Biz dərk etməliyik ki, Müsavat Partiyası və AXCP dibi deşilmiş qayıqda dənizin ortasındadırlar"**

❑ **Cavanşir ABBASLI**




# Putin G-20 sammitində layiqli münasibəti aldı

**Sülhəddin Əkbər:** "Rusiya-Qərb münasibətlərində gərginlik artacaq..."
**İqbal Ağazadə:** "Ümumiyyətlə, Putini sammitə buraxmamalı idilər..."

**Avstraliyanın Brisben şəhərində keçirilən G-20 ölkələrinin dövlət başçılarının sammiti əsasən Rusiya prezidenti Putinə münasibətlə yadda qalıb. Qeyd edək ki, sammitin əsas gündəmi qlobal iqtisadiyyatın problemləri, Ukraynadakı vəziyyət, Fransa ilə Rusiya arasındakı "Mistral" gəmisi ilə bağlı yaranan problem, Beynəlxalq Valyuta Fondunun gələn il üçün nəzərdə tutduğu islahatlar, Ebola virusu və digər məsələlərlə bağlı olub.**

Ancaq Putinin sammiti tez tərk etməsi beynəlxalq tədbirin əsas hadisəsi olub. "The Associated Press" Agentliyinin məlumatına görə, sammitdə Rusiya prezidenti Ukraynada yaranmış böhrana və faktiki işğala görə ciddi tənqid olunub. Agentlik yazır ki, Putin sammiti bazar günü günortadan sonra tərk edib. Məhz ondan sonra ABŞ prezidenti Barak Obama və Avropa liderləri Ukrayna məsələsini müzakirəyə çıxarıblar.

Avstraliyanın yerli qəzetləri isə yazıb ki, Putin dünya liderləri tərəfindən soyuq qarşılanmasına cavab olaraq tədbiri vaxtından əvvəl tərk etməyi lazım bilib. Belə ki, ABŞ, Avstraliya və Yaponiya bəyanat verərək Ukrayna böhranına görə Rusiyanı ittiham ediblər. Obama isə Putini Ukrayna ilə imzalanmış sülh sazişinə əməl etməməkdə ittiham edib.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərə** görə, Putinə bu cür münasibət Rusiyanın Qərblə geoplitik qarşıdurmasına siyasi-diplomatik cavabdır. Onun fikrincə, Rusiya-Qərb qarşıdurması bundan sonra da davam edəcək, hətta Rusiyanın G-20-dən çıxarılması da mümkündür: "Çünki onun əsas məqsədi Avrasiya İttifaqını yaradaraq genişləndirməkdir. Yeni SSRİ-ni indiki şərtlərə uyğun bərpa etməkdir. Burda isə Ukrayna həlledici rol oynayır. Ukrayna yoxdursa, imperiya da yoxdur. Digər tərəfdən, Avropa da belə hesab edir ki, Ukrayna yeni Avropa təhlükəsizlik sisteminin məhək daşıdır. Gördüyünüz kimi, həm Putin Rusiyası, həm də Qərb Ukraynaya öz geopolitik proyektlərində həlledici önəm verir. Bu baxımdan Ukrayna məsələsində tərəflərdən hansınınsa köklü güzəştə gedəcəyini düşünmürəm. 2015-ci ilin bu xüsusda həlledici olacağını düşünürəm".

**Partiya sədri deyir ki, Rusiyanın Ukraynanın şərqində hərbi iştirakını artırması fəaliyyətləri Moskvaya qarşı Qərbin təzyiqlərini daha da gücləndirəcək. Bundan başqa, Qərb də bölgəyə silahlı qüvvələr yerləşdirir:** "Yəni birbaşa olmasa da dolayısı ilə Rusiyaya hərbi cavab verməyə çalışırlar. Həm ABŞ Konqresində, həm də Avropa Birliyində Ukraynaya modern müdafiə silahlarının verilməsini müzakirə edilir, Ukrayna ordusunun gücləndirilməsi işinə iş gedir. Digər tərəfdən isə NATO-nun şərq cinahı, Aralıq, Şimal dənizlərində iştirakı gücləndirilir. O cümlədən hərbi təlimlərin sayı artırılır. 5-7 minlik çevik müdafiə gücləri yaradılır".

**Lakin Putinin tarixin təkərini geri çevirməyə çalışdığını deyən S.Əkbər baş verənləri "soyuq müharibə" saymır:** "Çünki o zaman iki ideoloji-siyasi, iqtisadi sistem qarşı-qarşıya idi. İndi isə Rusiyanın nə siyasi-ideoloji sistemi var, nə də hərbi və iqtisadi gücü yetərlidir ki, Qərbə qarşı dura bilsin. Dünya da həmin dünya deyil".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** də o qənaətdədir ki, G-20 sammitində baş verənlər Rusiyanın aqressiv siyasətinə cavab olub: "Putinə qarşı hələ çox hörmətli davranıblar. Dünya demokratiyasının və demokratikləşmənin əsas sahibləri olan ölkələri təmsil edən siyasi liderlər bu qədər qeyri-demokratik, bu qədər təcavüzkar bir siyasət yürüdən dövlət başçısı ilə belə rəftara görə qınanmalıdırlar. Daha sərt rəftar nümayiş etdirilməli idi, ümumiyyətlə, Putini sammitə buraxmamalı idilər. Putin bu münasibəti "soyuq müharibə" adlandırırsa, doğru qiymətləndirir. "Soyuq müharibə"dən sonra SSRİ kimi bir imperiyanın dağıldığını düşünsün və əgər bunu da "soyuq müharibə" hesab edirsə, o zaman növbəti mərhələdə Rusiyanın dağılmasına hazır olsun. Kim Putinə deyirdi ki, Ukraynaya müdaxilə etsin, Abxaziya və Osetiyanı müstəqil dövlət kimi tanısın, Ermənistan dəstək versin, o da Azərbaycan ərazilərini işğal altında saxlasın? Bütün bunların hamısı baş verəndə nəticə belə olur".

❑ **KƏNAN**



# Nəsillər dəyişir, Qarabağ problemi isə qalır...

Hüseynbala SƏLİMOV

**Onsuz da Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü təxminən bir ildən sonraya planlaşdırılırdı. Əgər bəyanatlara inansaq tərəflər bu müddət ərzində böyük siyasi sazişə münasibətlərini cilalamalı və onun üzərində iş aparmalı idilər.**

Amma indi tamam başqa bəyanatlar səslənir. Azərbaycan səmasında vurulmuş Ermənistan helikopteri təkcə hərbi güvənc yeri olmadı. Xüsusi canfəşanlıq edən Rusiya mətbuatına inansaq tərəflərin bu son vaxtlarda əldə etdikləri razılaşmaların üstündən xətt çəkmək olar...

Demirik ki, itki böyükdür. Ən azı ona görə ki, bu müddət ərzində hansı razılaşmaların əldə olunması haqqında elə bir məlumat da yoxdur. Amma bəlli olan budur ki, iki ölkənin prezidentləri görüşündən sonra Yerevanda dərhal izdihamlı mitinq keçirildi.

Bu, təxminən prezidentlərin Paris görüşündən sonraya təsadüf edirdi. Düzdür, baş tutmuş etirazları ölkənin Avrasiya İttifaqına inteqrasiyası ilə izah edənlər də tapıldı. Amma elə bu günlərdə Ermənistanın konstitusiya məhkəməsi Avrasiya İttifaqına qoşulmaq haqqında sənədə "hə" dedi. Bununla bağlı etiraz edən demək olar ki, olmadı.

Deməli, mitinqlərin predmeti heç də təkcə Avrasiya İttifaqı ilə bağlı deyildi. Üstəlik, həmin etiraz aksiyalarında Dağlıq Qarabağın taleyi ilə bağlı "narahatlıq" da ifadə olunurdu. Həm də yada salmaq lazımdır ki, Ermənistanın əksər siyasi qüvvələri ya Rusiya ilə bağlıdır, ya da öz fəaliyyətlərində ciddi şəkildə bu amili nəzərə alırlar...

Məhz ona görə də belə bir vaxtda Ermənistana məxsus helikopterin Azərbaycan silahlı qüvvələrinin mövqelərinə qaşı həmlə etməsi, helikopter vurulandan sonra isə Kollektiv Təhlükəsizlik Təşkilatının isterik bəyanatlar verməsi elə də təəccüb doğurmamalıdır...

Bütün bunlarda Fransanın vasitəçiliyinə qısqanclıq elementləri duyulur - Rusiya Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesini həmişə öz siyasi çətiri altında saxlamağa çalışır...

Elə bu səbəbdən demək olar ki, hələ uzun müddət nisbi atəşkəs rejimi iki ölkə arasında əldə edilmiş əsas razılaşma olacaq. Problemin siyasi həlli, təxminən 30 il davam edən münaqişənin siyasi həllinin tapılması hələ uzaq gələcəyin işi olacaq...

Düzdür, Ermənistan parlamenti bu yaxınlarda Dağlıq Qarabağın tanınması haqda növbəti qanun layihəsini rədd etdi. Belə bir mövqe hələ siyasi nizamlanma prosesinin tükənmədiyini düşünməyə imkan verirdi. Amma hər şey bir anormal vəziyyətə işarə edir - neçə illərdir ki, tərəflər nə sülh, nə də ki, müharibə şəraitində yaşamaqda davam edirlər...

Hər iki tərəfdə artıq nəsil dəyişməsi baş verir. Bir tərəfdən bu, yaxşıdır. Bu vaxta qədər baş vermiş ağrı-acıları unuda bilməyən nəsil ortadan çıxır və onun yerini daha gənc və üzərində keçmişin yükünü daşımayan gənclik tutur...

Amma bir nəsil böyük zaman intervalı deməkdir. Əgər bu vaxt ərzində heç nə edilməyibsə, münaqişənin siyasi həlli tapılmayıbsa onun gələcəkdə tapılacağına ümid yoxdur, ona görə ki, yetişməkdə və ataların-babaların yerini tutmaqda olan nəsil böyük neqativ münasibət yükü də alır...

Onlara bu neqativ yük, hətta nifrət hissi rəsmi təbliğatlar vasitəsilə aşılanır. Bəli, qədim yunanlar "katarsis"ə-müharibənin mənəvi saflaşma funksiyasına inanırdılar...

Amma real həyatda belə olurmu? Əfsus ki, yox. Müharibə, təbii ki, o, hələ bitməyibsə, insanlara yalnız nifrət aşılayır. Yalnız müharibə bitəndən sonra və müharibənin yaraları tədricən sağalandan sonra güman etmək olardı ki, hər iki tərəfdə insanlar tədricən biri-birini başa düşməyə çalışacaq...

İndi isə müharibə bitməyib, çünki iri miqyaslı hərbi əməliyyatların dayanması hələ o demək deyil ki, savaş bitib. Münaqişənin siyasi həlli tapılana qədər tərəflər arasında periodik olaraq ixtilaflar yaşanacaq...

Hər dəfə tərəflər siyasi nizamlama məqamına çatanda dərhal hansısa bir qarşıdurma elementi işə salınır. Bunların daha çox Rusiya tərəfdən başlanğıc götürməsinin fərqindəyik.

Rusiya istəyirmi ki, Dağlıq Qarabağ de-yure və de-fakto Ermənistanın olsun? Yox, istəmir. Rusiya istəyirmi ki, Dağlıq Qarabağ Azərbaycanın olsun? Yox, bunu da istəmir...

**Rusiya istəyir və daim ona çalışır ki, Dağlıq Qarabağ ortalıqda bölünməyən "alma" kimi qalsın. Bu ölkə göylərdən alma düşəcəyinə inanmır, ona görə də yerdəki "almalar"dan, xüsusən də özünün yetişdirdiyi "almalar"dan möhkəm-möhkəm yapışır...**

# Yəhudi biznesmen haqda yeni şok məlumatlar



# Abbas Abbasov "AST Telman"ı yarıyolda qoydu

## Milyarderin şirkətini borc "əridir"; Azərbaycanın sabiq vitse-primyeri rəhbərlərindən biri olduğu şirkətə daha getmir və tədbirlərdə Telman İsmayılovla birgə görünmək istəmir; Beynəlxalq Bank qalmaqallı iş adamının borclu olduğunu təsdiqlədi...

**Xəbər verdiyimiz kimi, Rusiyada dərc olunan "Kommersant" qəzeti yəhudi əsilli iş adamı Telman İsmayılovun ("AST Telman") Moskvada ümumi dəyəri 140 milyon dollar olan yarımçıq qalmış mehmanxanasının aktivlərinin Azərbaycan Beynəlxalq Bankının nəzarətinə keçməsi barədə yazı dərc edib. Məlumatdan belə aydın olur ki, T.İsmayılov nə vaxtsa Beynəlxalq Bankdan da iri məbləğdə kredit götürübmüş və indi o, krediti qaytara bilmədiyi üçün bank yəhudi biznesmenin daşınmaz əmlakının bir hissəsini öz mülkiyyətinə keçirib.**

**"Kommersant" qəzetinin bu barədə xəbərinə Beynəlxalq Bank rəsmi münasibət bildirməyib.** Bankın Moskva bürosundan axar.az saytına isə deyiblər ki, T. İsmayilov həqiqətən də onlara borcludur: "Amma "Kommersant" qəzetində göstərilən obyektlərin heç biri nə birbaşa, nə də ki, dolayısı yolla bizim bankın fəaliyyətinə aiddir. Materialda yazılanlardan yalnız bir məsələnin bizə aidiyyəti var: Azərbaycan Beynəlxalq Bankında həqiqətən AST QOF-un hesabı var və hazırda bu şirkət bizim kredit borclumuzdur". Yəni biznesmenin külli-miqdarda borclu olduğu xəbəri təsdiqlənir.

Maraqlıdır ki, bu borc xəbəri yayıldıqdan sonra bəzi Azərbaycan saytları T.İsmayılovun dünya şöhrətli müğənni Şakira ilə ad günündə "Azərbaycan" mahnısının sədaları altında rəqsi etməsi əks olunan videonu yayıb. Amma qısa bir araşdırma ilə aydın olur ki, bu video düz 6 il əvvəl T.İsmayılovun xoşbəxt günlərində-ad günündə lentə alınıb.

2009-cu ildə "Çerkizovsk" bazarının Putinin göstərişi ilə bağlanmasından sonra T.İsmayılov Rusiyanı tərk edib və faktiki olaraq Moskvadakı biznes fəaliyyətini dayandırıb.

**Son məlumatlara görə, T.İsmayılov bir müddətdir ki, qeyri-rəsmi olaraq "AST" şirkətlər qrupunun rəhbərliyini də tərk edib.** O, "AST" dəki biznes aktivlərinin 37 faizini oğulları Ələkbər və Sərxanın, holdinqin 25 faizini isə qohumu Zaur Mərdanovun adına rəsmiləşdirib. Biznesmenin çöküşünə qədər holdinqə 30-dən çox kompaniya daxil idi. Onların sırasında mehmanxana ("AST-qof"), tikinti ("AST-mapstroy"), sərnişin daşımaçılığı ("AST-taksi"), zərgərlik("AST-qold") və restoran biznesi də vardı. Kompaniya təkcə Moskvada 1,5 milyon kvadratmetr daşınmaz əmlaka sahib idi.

Rusiya mənbələri yazır ki, "AST" qrupuna indi hansı kompaniyaların daxil olduğunu demək çətindir. T.İsmayılovun "AST-müzykıl", "Praqa-AST", "AST-meç", o cümlədən Moskvada nəşriyyat evi kimi kompaniyaları itirdiyi dəqiqdir. Bu kompaniyaların niyə "əridiyi" barədə dəqiq bilgi verilmir, amma böyük ehtimalla T.İsmayılov borcları səbəbindən bu şirkətləri ya satıb, ya da borcu əvəzində aktivlərində imtina etməyə məcbur olub. Məsələn, onun 3500 hektar sahəsi olan "Kalinski" kolxozunun ərazisini aldığı, amma burada evlər tikmək niyyətinin baş tutmadığı və sonda ərazini naməlum bir şirkətə satdığı deyilir. Onun "AST" rəhbərliyini məhz borcları səbəbindən tərk etdiyi və bununla da oğlanlarını sığorta etmək istədiyi iddia olunur.

**Bu qalmaqalda hələ ki ortada görünməyən daha bir tanınmış sima var.** Söhbət "AST" şirkətinin vitse-prezidenti, Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovdan gedir. Bir müddət əvvələ kimi "AST" şirkətindən baş verən hər hansı qalmaqallı məsələlərlə bağlı dərhal təkzib verən vitse-prezident çoxdandır ki, müəmmalı şəkildə susur.

**2005-ci ildə Bakıdan ayrılan A.Abbasov əvvəldən də ciddi ələqələri olduğu Moskvaya pənah apardı.** Kreml hakimiyyəti ilə münasibətlərindən xəbərdar olan köhnə dostu T.İsmayılov Abbas Abbasova "AST" şirkətində vitse-prezident postu verdi. Amma bu təyinatdan sonra T.İsmayılova daha geniş imkanlar yaradılmadı, əksinə, ona qarşı Rusiya hakimiyyətindən təzyiqlər başladı. Onun "Çerkizovsk" bazarı bağlandı, biznesinə əngəllər yaradıldı və nəhayət, sıxışdırılıb Rusiyanın biznes-elitasından çıxarıldı.

Bu dəfə də A.Abbasovun ciddi dəstəyi ilə o, Türkiyəyə yerləşdi, bu ölkənin vətəndaşlığını aldı və "Mardan Palace" ni tikdi. Qeyd edək ki, biznesmenin "Mardan Palace" otelinə görə də "Halk Bank"dan 62,5 milyon dollar kredit alaraq geri qaytarmaması ilə bağlı xəbərlər var.

**A.Abbasov "AST" də vəzifə aldıqdan sonra T.İsmayılovun Azərbaycan hakimiyyəti ilə də münasibətləri pozuldu.** 2013-cü il seçkisi ərəfəsi T.İsmayılov A.Abbasovun yaratdığı "Milyarderlər İttifaqı"na daxil olduqdan sonra, ümumiyyətlə Bakıya gəlməsi qadağan olundu. Müsahibələrində "Azərbaycan prezidentinə qarşı olan təşkilatda yer ala bilmərəm" desə də, yəhudi biznesmenə tətbiq edilən qadağa indi də qalır... Məlumatlara görə, Azərbaycan hakimiyyətinin əlində prezident seçkisi ərəfəsi "Milyarderlər İttifaqı" üzvlərinin Türkiyəyə səfərləri və onların "Mardan Palace" də keçirdikləri məxfi görüşlər barədə sensasion xarakterli (qəzetlərə çıxarılsa) məlumatlar var.

Moskvadakı bir mənbəmiz deyib ki, A.Abbasov bir müddətdir ki, "ictimai əsaslarla işlədiyi" "AST" şirkətindən ayrılıb, ofisə getmir və Rusiya elitasının tədbirlərdə də dostu ilə birgə görünmür.

**Qaynağımız deyir ki, A.Abbasovun Azərbaycanda vəzifədən "könüllü" çıxmasından sonra ilkin dövr üçün vitse-prezidentlik kimi posta ehtiyacı olub. T.İsmayılov da bu lütfü ona göstərib. Amma T.İsmayılovun ciddi biznes problemləri başlayanda A.Abbasov yaxasını kənara çəkib, yalnız sözdə dostunu dəstəkləyib.**

❑ Xəbər xidməti

# Azərbaycanın 5,5 milyard xarici borcu var

**Bu ilin oktyabr ayının 1-nə Azərbaycanın xarici dövlət borcu 6 mlrd. 380,7 mln. ABŞ dolları (5 mlrd. 5,1 mln. manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 8,5% təşkil edib.**

Maliyyə Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, borc vəsaitlərinin 7,4%-i 10 ilə qədər, 61,3%-i 10 ildən 20 ilə qədər, 31,3%-i isə 20 ildən artıq olan müddətə cəlb olunub.

Hesabat dövrünə xarici borc üzrə alınan kreditlərin valyuta tərkibi aşağıdakı kimi olub: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) - 10.4%, valyutalar üzrə isə ABŞ dolları ilə - 63,7%, avro - 21,7%, yapon yeni - 2,2%, İslam dinarı - 0,8%, Səudiyyə rialı - 0,5 %, BƏƏ dirhəmi - 0,5 %, Küveyt dinarı - 0,2%.

Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, səhiyyə və s. sahələrə sərf edilib.



YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# Qubad İbadoğluna qarşı yeni iddia, qarşılıqlı ittihamlar...

**Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasında (MSŞAK) baş verən yeni proseslər diqqət çəkir. Sosial şəbəkədə başlanan yeni dartışmaya start verənlərdən biri MSŞAK üzvü, Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov olub.**

Onun iddiasına görə, bir müddətdir ki, Qubad İbadoğlunun Neft Fondunun rəhbərliyi ilə intensiv məsləhətləşmələr aparmasından xəbərdar olub və Myanmarda başlanan sövdələşmə artıq nəticəsini verməyə bağlayıb: "Neft Fondu qərara gəlib ki, Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünü Qubad bəyə bağışlasın və qalan təsisçilər isə yavaş-yavaş uzaqlaşdırılsın. Şahmar müəllim bu barədə mən hələ ÇQ üzvü olanda demişdi. O bildirmişdi ki, Koalisiya mandatından kənara çıxır (mən bu fikirlə tam razıyam son illər bu koalisiya Müsavat və AXCP-nin əlində marionetka olub). Mən də dəfələrlə bu barədə çıxışlar etmişəm. Amma koalisiya daxilində bu qarşıdurmaların başında həmişə Qubad İbadoğlu dururdu. İndi hər şey aydındır. İndi də HSŞT Koalisiyasını ələ keçirmək yolunu tutub. Rəsmi bəhanəsi də budur ki, bu təşəbbüsün Şahmar Mövsümovdan gəldiyini və koalisiyanın Qubad İbadoğlunun adına QHT kimi qeydiyyatdan keçirməyə söz verdiyini bildirir. Məsələ ondadır ki, koalisiyanı ilk təsis edən 25 təşkilatdan biri də mənim təmsil etdiyim təşkilatdır. İndi koalisiyanın 140-dan çox təsisçisi var. Mən vaxtilə seçim qrupunun rəhbəri və Çoxtərəfli Qrupun üzvü olmuşam. HSŞT haqqında qanun layihəsinin müəllifiyəm. İndi Qubad İbadoğlu koalisiyanı özəlləşdirir və bunu Neft Fondunun tapşırığı ilə etdiyini utanmadan yazır. Onunla bağlı hər şey aydındır. Amma mən susan deyiləm".

Bu ciddi iddiaya Q.İbadoğlunun da cavabı gecikməyib. O, S.Məmmədova elə eyni sosial şəbəkə vasitəsilə cavab verib. Q.İbadoğlu öncə yazıb ki, bəzi fədakar müsavatçıların koalisiya üzvləri olan və hökumətin onun əleyhinə danışdırdığı şəxslərin apardığı təbliğata qoşulmasından təəssüf hissi keçirir: "Siz orda nə baş verdiyini həmin Koalisiyanın müsavatçı üzvləri qədər yaxından bilmirsiniz. Odur ki, bu məsələdə onların yazdıqlarına və şərhlərinə diqqət yetirin. Hər yetənin, illər öncə Müsavatı tərk edənlərin əleyhimizə olan kampaniyasına kor-koranə qoşulmayın. Məsələ burasındadır ki, Myanmarda hökumətin arzuladığı qərar verildi (həmin qərarı da oxuyun, onun linkini şərh bölməsində yerləşdirəcəm). Məhz Myanmarda Beynəlxalq İdarə Heyətinin verdiyi həmin qərardan sonra hökumət bəyanatla çıxış etdi ki, bu qərar bizə təzyiqdir və ona görə də Azərbaycan Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündən (MSŞT) çıxa bilər. O zaman həmin adamlar məni suçlayırdı ki, siz



**Qubad İbadoğlu:**
"Hər yetənin əleyhimizə olan kampaniyasına kor-koranə qoşulmayın"



**Sahib Məmmədov:**
"Onunla bağlı hər şey aydındır, amma susan deyiləm"

Myanmarda ölkənin əleyhinə qərarlara rəvac vermisiniz, MSŞT-dən Azərbaycanın çıxmasına şərait yaratmısınız.

İndi isə müzakirə olunan məsələyə aydınlıq gətirmək istəyirəm. MSŞT Koalisiyasının Şurası qərar verib ki, yaranmış vəziyyəti müzakirə etmək üçün Şahmar Mövsümovla görüş keçirilsin, çünki o MSŞT üzrə hökumət komissiyasının sədridir. Görüşdə 6 nəfər Şura üzvü iştirak edib, vətəndaş cəmiyyətində yaranmış problemlər müzakirə olunub və Koalisiya üzlərinin bank hesablarına həbs qoyulduğuna görə çıxış yollarından biri kimi yeni ictimai birlik yaradılması təklif olunub. MSŞT Koalisiyasının Şurası da bu təklifi müzakirə edib, səsvermə nəticəsində qərar verib ki, 3 nəfərdən ibarət təsisçi qrup bu işlə məşğul olsun, yeni ictimai birliyin sənədlərini hazırlayıb Ədliyyə Nazirliyinə versin".

Q.İbadoğlu yazıb ki, o təşkilatın qeydiyyata alınıb-alınmayacağı hələ bilinmir. İqtisadçının bildirdiyinə görə, rəhbərlik etdiyi və 1999-cu ildən qeydiyyatdan olan, adlı-sanlı və dünya şöhrətli İqtisadi Tədqiqatlar Mərkəzi avqustun sonundan bank hesablarına həbs qoyulmasına görə fəaliyyətini dayandırıb: "İndiki şərtlərlə yeni yaradılan təşkilatı işlətmək o qədər də asan olmayacaq. Amma buna baxmayaraq, sizə məlum olan Koalisiya üzvləri ona görə səs-küy salırlar ki, birincisi təsisçilərin siyahısına onlar daxil edilməyib, ikincisi də onlar Koalisiyanı da parçalayıb hökumətin nəzarətinə vermək istəyirlər".

Q.İbadoğlu bu məlumatı Koalisiyanın email qrupunda da paylaşıb. S.Məmmədov isə Q.İbadoğlunun bu yazdıqları ilə razılaşmayıb və aşağıdakıları yazıb: "Qubad bəy, mən sizin hökumət nümayəndələri ilə intensiv və seperat sövdələşmələr apardığınızı bilirdim. Onu da bilirdim ki, sizə siyasi məğlubiyyətdən sonra hansısa yeni pozisiya verilməlidir. İndi 3 nəfər 140 nəfərin təsisçisi olduğu təşkilata sahib olmaq istəyirsiz. Bu, qanuna ziddir. Mən şəxsən buna yol verməyəcəm. MSSA-ni təsis edənlərdən biri də mənəm. Ola bilər siz burda hamıya yazasız ki,hər şey yerində qalacaq filan. Boş şeydir. Mən axı MSSA ilə bağlı qanun layihəsini hazırlayarkən bütün təcrübəni öyrənmişəm. Liberiya və Nigeriyada -5-6 təsisçi var. Onlar da çoxtərəfli qrupda təmsil olunur. Başqa heç nə yoxdur.

Burda da bir müddət Şura filan olacaq sonra onların heç bir hüquqi satusu olmadığı üçün unudulacaqdır".

**S.Məmmədov bildirib ki, bu, onların yaratdığı təşkilatı oğurlamaqdır. Onun iddiasına görə, vaxtilə Anar Məmmədli də belə edib...**

❑ **Sevinc TELMANQIZI**

# Müsavat Divanı Səxavət Əlisoyu partiyadan çıxardı

## Töhmət alan Əlövsət Talışxanlı isə Müsavatdan istefa verdi; partiya 23 noyabrda ümumrespublika müşavirəsi keçirəcək



Səxavət Əlisoy



Əlövsət Talışxanlı

**Noyabrın 17-də Müsavat Partiyasının Divanının iclası keçirilib. Partiyadaxili məsələlərin müzakirəsi zamanı partiya üzvləri Əlövsət Talışxanlı və Səxavət Əlisoyun partiyanın nizamnamə və proqramına zidd davranışları müzakirə edilib. S.Əlisoy Müsavatın nüfuzuna xələl gətirən fəaliyyəti, partiya strukturlarına qarşı heç bir fakta əsaslanmadan irəli sürdüyü ittihamlar, partiya strukturlarını tanımadığı barədə verdiyi bəyanatlar, partiyası nizamnaməsinin preambulasının 6-cı və 1.9-cu bəndlərini kobud şəkildə pozduğu nəzərə alınaraq Müsavat sıralarından xaric edilib. Əlövsət Talışxanlının fəaliyyəti də S.Əlisoyun fəaliyyəti ilə eynilik təşkil etsə də, partiyada əvvəlki fəaliyyətləri nəzərə alınmaqla, ona partiya nizamnaməsinə zidd fəaliyyəti durdurmaq barədə son xəbərdarlıq edilməklə ona töhmət verilib.**

Divanın iclasında qanunsuz və əsassız ittiham olunaraq həbsxanada saxlanılan Tofiq Yaqublunun səhhətinin pisləşməsi ilə bağlı məlumat dinlənilib. Onun təcili müalicə müəssisəsinə köçürülməsi tələb edilməklə, hüquqi tədbirlərin görülməsi barədə tapşırıqlar verilib. Divanın iclasında noyabrın 23-də Müsavatın mərkəzi qərargahında ümumrespublika müşavirəsinin keçirilməsinə hazırlıq işlərinin gedişi barədə məlumat dinlənilib. Divanda həmçinin qonşu Gürcüstanda gedən siyasi proseslər müzakirə edilib. Sonda cari məsələlərə baxılıb.

**S.Əlisoy bu addımın atılacağını gözlədiyini bildirib:** "Divanın qərarında qeyri-adi şey yoxdur. Biz bilirdik ki, bu adamlar demokratiyanı qəbul etmirlər, Müsavatı avtoritar üsulla idarə edirlər".

**S.Əlisoy bundan sonra Müsavatda növbədənkənar qurultayın çağırılması üçün çalışacağını vurğulayıb:** "İnanıram ki, saxtakar başqan Arif Hacılını lazım olan yerdə oturdacağıq".

**Əlövsət Talışxanlı isə "Yeni Müsavat"a bildirdi ki, barəsində çıxarılan qərar anti-demokratik addımdır və nizamnaməyə zidd qərardır.** O, Divanın qərarı barədə məlumat aldıqdan dərhal sonra Müsavat Partiyasının sıralarından istefa verdiyi barədə bəyanat yayıb. Bəyanatını ilk olaraq "Yeni Müsavat"a göndərən Ə.Talışxanlı İsa Qəmbəri suçlayıb. Bəyanatda deyilir: "Qeyri-legitim Divanın Səxavət Əlisoyu partiya üzvlüyündən çıxardığı qərarına etiraz olaraq bu andan Müsavat Partiyası üzvlüyündən istefa verdiyimi bəyan edirəm. Daxilən müsavatçı olaraq qalıram, partiya sıralarını isə tərk edirəm. Mən bu cür demokratiyaya zidd olan insanlarla birlikdə addımlaya bilmərəm. Belə insanlarla bir partiyada addımlamağı şərəf və ləyaqətimə təhqir hesab edirəm. Hər şey cənab İsa Qəmbərin göstərişi ilə həyata keçirildi. Buna çox təəssüf edirəm".

**Müsavat başqanlığına sabiq namizəd Qubad İbadoğlu da bildirib ki, Divanın qərarı gözlənilən idi:** "Çünki biz bilirdik ki, belə bir sifariş Divana gəlib və Divan onu icra etməlidir. Müsavat Divanının qərarı partiyadaxili demokratiyanın olmamasının, tənqidlərə dözümsüzlüyün göstəricisidir. Müsavat hazırda daxili demokratiya böhranı yaşayır və aparılan siyasət yalnız partiyanın idarəçiliyi ilə razılaşmayanların cəzalandırılması üzərində qurulub. Bu da təbii ki, partiyanın avtoritar üsullarla idarə olunmasını göstərir. Lakin hesab edirəm ki, bu qərar partiyada bizim mövqelərimizin möhkəmlənməsinə gətirib çıxaracaq".

**Q. İbadoğlu bundan sonra atacağı addımlardan da danışıb:** "Partiyanın nizamnamə çərçivəsində növbədənkənar qurultayının çağırılmasını hədəfləyirik və bu hədəfə çatmaq uğrunda fəaliyyət göstərəcəyik".

**Başqanlığa digər sabiq namizəd Tural Abbaslı isə Az-News-az-a bildirib ki, qovulmalar Müsavat üçün heç də yaxşı olmayacaq:** "Keçmiş başqanlığa namizədin qurultaydan 40 gün sonra partiyadan qovulması həmin partiya barədə heç də yaxşı imic formalaşdırmayacaq. Müsavatda baş verən hadisələr qətiyyən uğurlu və düşünülmüş addım deyil. Hamımız bilirik ki, cəza tədbirlərinin partiya daxilində verdiyi mesajlar olur. İndi mən bu qərarı verənlərdən soruşmaq istərdim ki, bu xaricetmə ilə nə mesajı verdilər? Yaxud bu, cəmiyyətə, mətbuata bir söz deyib daxildə başqa addımlar atmaqdır? Bu məsələnin partiyadaxili münasibətləri daha da kəskinləşdirəcəyini və bunun da Müsavat üçün xoş nəticələrə səbəb olmayacağını düşünürəm".

**Narazılardan olan Vurğun Əyyub isə APA-ya açıqlamasında deyib ki, Müsavat rəhbərliyinin qisas almaq cəhdlərinin davam edəcəyini güman eləyir:** "Kim partiya rəhbərliyinin apardığı siyasətdən narazı olacaqsa, onlardan bu şəkildə qisas almaq istəyəcəklər. Müsavat Divanının qərarı partiya rəhbərliyinin Səxavət Əlisoydan qisas almaq cəhdidir".

**S.Əlisoyun Müsavatdan çıxarılmasına YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov da münasibət bildirib.** S.Novruzov APA-ya açıqlamasında Arif Hacılını və İsa Qəmbəri hədəfə alıb, S.Əlisoyu və digər narazıları isə faktiki olaraq müdafiə edib: "...O tələb edir ki, demokratik qaydada qurultay keçirilsin. Çünki bir qrup tərəfindən Müsavat Partiyası monopoliyadadır. Ömrü boyu yalandan demokratiyadan, fikir plüralizmindən danışanlar, Azərbaycanda keçirilən seçkiləri saxtalıqda ittiham edənlər bu gün özləri hansı vəziyyətdə olmalarını ortaya qoydular. Partiya rəhbərliyinə seçkilərdə hətta ən iyrənc saxtakarlığa əl atırlar".

**YAP rəsmisi Q.İbadoğlu və S.Əlisoyun iqtidar tərəfindən idarə olunması ittihamlarına da cavab verib:** "İstər yerli təşkilat sədrləri, istər partiya gənclər təşkilatının sədri, istər ayrı-ayrı şəxslər, məsələn, Nəsib Nəsibli, Hikmət Hacızadə və Müsavatın əksər qurucuları son qurultayın seçiminə etirazını bildirib. Bunun iqtidara nə dəxli var axı? Buna etiraz edənlər sadəcə deyirlər ki, azad və ədalətli seçki keçirilsin, nizamnaməyə uyğun hərəkət tələb edirlər. Onlar haqlı olaraq deyirlər ki, seçki Arif Hacılının saxtakarlığı, fitnəkarlığı ilə keçirilməməlidir. Budur söhbət. Bunun iqtidara nə aidiyyəti var? Müsavat Partiyası Arif Hacılı tərəfindən monopoliyaya götürülüb. Təbii ki, burada bilavasitə İsa Qəmbərin barmağı var".

**S.Novruzov Müsavatın gələcəyi ilə bağlı qənaətini də açıqlayıb:** "Ya təkrar qurultay keçirilməlidir, ya da yeni bir Müsavat Partiyası yaranacaq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014



# Xankəndini nə vaxt vuracağıq?

**Azər RƏŞİDOĞLU**

**Azərbaycan öz ərazisində işğalçı, düşmən tərəfə məxsus olan vertolyotu vurdu. Azərbaycanın razılığı olmadan savaş bölgəsində uçan vertolyotun vurulması istər ölkə qanunlarına, istərsə də beynəlxalq qanunlara görə anlaşılandır. Bunu çoxdan etmək lazım idi. Rəsmi Bakının öz ərazisinə düşmən kimi soxulan istənilən hərbi qüvvəni məhv etmək hüququ var və bu addım yalnız təqdir edilə bilər.**

Belə bir addımı istənilən ölkə atır. Məsələn, İraqda ABŞ təyyarələrini, Əfqanıstanda SSRİ təyyarələrini dəfələrlə vurublar. Rəsmi məlumatlara əsasən, 1979-89-cu illər ərzində SSRİ 333 vertolyot itirib. Rəsmi məlumatlara görə, bunun 299-u Mi-8, Mi-10, Mi-24 olub. Habelə, 30 hərbi nəqliyyat əfqanlar tərəfindən vurulub.

Bu faktlar da onu deməyə əsas verir ki, ölkə ərazisinə soxulan hərbiçiləri heç kəs duz-çörəklə qarşılamır.

Ən maraqlısı odur ki, son zamanlar Ermənistanda rəsmi İrəvana qarşı aksiyalar artan xətt üzrə inkişaf edirdi. Aksiya təşkilatçıları arasında Qarabağ münaqişəsinin mərhələli tənzimlənməsinə tərəfdar çıxan insanlar da az deyildi. Belə bir vaxtda, ermənilərə məxsus hərbi vertolyotun Azərbaycanın işğal olunmuş ərazilərində görünməsi ermənilər tərəfindən düşünülmüş ssenariyə bənzəyir. Görünən odur ki, İrəvan sülh prosesini pozmaq üçün əlindən gələni edir.

Ona da diqqət yetirək ki, vurulan vertolyot hücum imitasiyası həyata keçirirdi. Ən incə məqam isə ondan ibarətdir ki, vertolyot hücum imitasiyası həyata keçirən zaman işğal olunmuş ərazilərimizdə on minlərlə erməni əsgəri iştirak edirdi.

Nəzərə almaq lazımdır ki, vertolyot vurulana qədər erməni hərbi aviasiyası cəbhəyanı zonada 3 gün ardıcıl olaraq provokasiya xarakterli uçuşlar həyata keçirib. Bu barədə Müdafiə Nazirliyinin məlumatında da qeyd olunurdu.

Azərbaycan ordusunun bu addımı Ermənistan və Rusiyanın daha bir təxribatına qarşı bir addım kimi də dəyərləndirilə bilər. Məlum olduğu kimi, İrəvan Xocalıda hərbi hava limanı açmağa çalışırdı. Vertolyotun vurulması bu plana qarşı tutarlı bir cavab idi.

Lakin yarı yolda dayanmaq olmaz. Azərbaycanın rəsmi razılığı olmadan onun ərazilərində uçuşlar həyata keçirən hər bir vertolyot, təyyarə vurulmalıdır. Xankəndinə uçan vertolyotları da vurmağa Azərbaycanın tam hüququ çatır.

Azərbaycan ordusu bu addımı ilə yüz minlərlə insana bir stimul vermiş oldu. İstisna deyil ki, ermənilər bunun acığını çıxmağa, Azərbaycan ərazisində diversiyalar törətməyə çalışacaqlar.

Ermənilər artıq Azərbaycana qarşı kəskin addımlar atmağa çağırıblar. Araşdırmaçılar əmindirlər ki, hadisələrin bu cür inkişafı yalnız Rusiyaya sərf edir. Kreml ona tabe olan ərazilərdə münaqişələrin gərgin olmasında maraqlıdır.

Erməni vertolyotunun vurulmasının bir müsbət tərəfi də oldu. Artıq heç bir ölkənin avia şirkəti işğal olunmuş ərazilərə uçuşlar təşkil etməyə risk etməyəcək.

Unutmaq olmaz ki, Dağlıq Qarabağ heç bir ölkə tərəfindən tanınmayıb, odur ki, onun ərazisindən uçuşlar Azərbaycanın icazəsi olmadan həyata keçirə bilməz. Azərbaycan bildirib ki, işğal olunmuş ərazilərə uçan bütün təyyarələri vuracaq və aviaşirkətləri öz laynerlərini və sərnişinlərini təhlükə altına salmamağa çağırıb.

Erməni vertolyotunu vurmaqla Azərbaycan bütün bu deyilənlərin quru söz olmadığını sübuta yetirdi.

**Bu addım iqtidarlı-müxalifətli bütövlükdə cəmiyyətin təqdir etdiyi addım idi. Davamlı olmasını da hər kəs arzulayır...**

# "Kifayət qədər ciddi proses başlaya bilər"

## Pənah Hüseyn Əli Həsənovla görüş təşəbbüsünün detallarından danışdı və ittihamlara "ucuz şantajdır" cavabını verdi

**Noyabrın 12-də KXCP qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin toplantısında hakimiyyət-müxalifət dialoqu ilə bağlı təşəbbüs irəli sürülməsi son günlərin aktual siyasi hadisələrindən biridir. Məlumat üçün bildirək ki, Mərkəzə daxil partiyalardan dördünün (KXCP, ADP, ALDP, AXP) rəhbəri ölkədəki ictimai-siyasi vəziyyəti müzakirə etmək üçün Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla görüş təklif ediblər.**



**Əli Həsənovun məsələyə münasibəti gecikməyib. Belə ki, Əli Həsənov musavat.com-a açıqlamasında bildirib ki, təşəbbüsə hörmətlə yanaşırlar:** "Hakimiyyətlə siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri arasında dialoq demokratik inkişafın zəruri şərtlərindən biridir və vətəndaş cəmiyyətinin daha da dərinləşməsinə xidmət edir. Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən bütün ictimai-siyasi təşkilatlarla dialoqa və əməkdaşlığa həmişə hazırdır. Azərbaycanın ictimai-siyasi həyatında iştirak etməyin siyasi və hüquqi normaları, seçkilər, sağlam siyasi rəqabət, insan hüquq və azadlıqlarının təmin edilməsi və digər məsələlərə dair səmərəli müzakirələr aparıla bilər. Hesab edirik ki, bu sahədə kifayət qədər təcrübə də toplanmışdır. Ayrı-ayrı vaxtlarda ictimai-siyasi qurumların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər keçirilmiş, fikir mübadiləsi aparılmış və irəli sürülən dəyərli rəy və təkliflər nəzərə alınmışdır. Buna görə də bir sıra siyasi partiya rəhbərlərinin ictimai-siyasi vəziyyəti müzakirə etmək təşəbbüsünə hörmətlə yanaşırıq. Dialoqla bağlı konkret təkliflər olarsa, onları nəzərdən keçirməyə hazırıq".

**Milli Şuraya və AXCP-yə daxil olan bəzi siyasilər isə partiyaların Əli Həsənovla görüş təşəbbüsünə mənfi münasibət sərgiləməkdədirlər. Onlar belə bir təşəbbüsdə bulunanları hakimiyyətə yaxınlaşmaqda ittiham edirlər. Məsələn, Milli Şuranın üzvü, sabiq deputat Gültəkin Hacıbəyli özünün facebook səhifəsində məsələyə belə münasibət bildirib:** "15 partiya görüş üçün Əli Həsənova müraciət etdi. Dərhal da cavab gəldi. Təklif müsbət qarşılanıb. Nə gözəl anlaşdılar! Maşallah! Bizə də sevinmək qalır. Allah daha da mehriban etsin. Bir də ki, hökumətimizin şəffaflıq rejiminə keçməsi çox sevindiricidir. Əvvəl Ramiz Mehdiyev "azad" mətbuatı yığıb ona rəhbər tapşırıqlarını verdi. İndi isə Əli Həsənov partiyalara YAP rəhbərliyinin təlimatlarını çatdıracaq. Belə funksional əməkdaşlığı mən şəxsən çox bəyənirəm. Partiyalara qarşıdan gələn parlament seçkisində bu əməkdaşlığın bəhrəsini görməyi arzulayıram".

Əli Həsənovun partiyaların görüş təşəbbüsünə verdiyi reaksiyaya təşəbbüs müəlliflərindən olan **AXP sədri Pənah Hüseynin** münasibətini öyrəndik. Pənah Hüseyn dedi ki, Əli Həsənovun partiya sədrlərinin onunla görüş təşəbbüsünə ümumi reaksiyasını pozitiv dəyərləndirmək, müsbət qarşılamaq olar.

**"Görüş üçün rəsmi müraciət nə vaxt olacaq" sualına P.Hüseyn belə cavab verdi:** "Müraciətin rəsmən edilməsinə gəldikdə bu, müvafiq formada edilib və bu ətrafda ilkin müzakirə də artıq olub. Görüşə müraciət dörd partiyanın sədri tərəfindən edilsə də əvvəldən məsələ İnsan Haqları və Demokratiya Mərkəzində əməkdaşlıq edən partiyaların da diqqətinə çatdırılıb. Qeyd elədiyim ilkin müzakirələr barədə də həmin partiyalar məlumatlandırılacaq".

"Görüşün harada keçirilməsini istəyirsiniz" sualına isə cavabında P.Hüseyn bildirdi ki, görüşün müddəti, yeri, forması ola bilsin ki, həm də formatı görüş istənilən tərəflə müzakirələr davam edəcəksə həmin müzakirə gedişində dəqiqləşəcək.

Görüşdən gözləntilərə, müzakirə ediləcək məsələlərə gəlincə, AXP sədri vurğuladı ki, bəzi ilkin, ideyalar, təkliflər səslənib: "Kifayət qədər maraq doğuran ideyalar, təkliflərdir. Mən bu görüş təşəbbüsünün əhəmiyyətinin nə şişirdilib qeyri-real gözləntilər yaradılmasının, nə də onun əhəmiyyətinin aşağı salınmasının tərəfdarıyam. İndiki mərhələdə yalnız onu demək olar ki, kifayət qədər ciddi proses də başlaya bilər, hər şey indiki də kimi də qala bilər.

**Hansı məsələlərin müzakirə edilməsinin nəzərdə tutulmasına gəlincə, bu məsələləri DİHM- in sədri kimi KXCP sədri Mirmahmud Mirəlioğlu koordinasiya edir:** "Onun sözləri ilə desəm, işlər yaxşı gedəcəksə, təkliflər paketi də masaya qoyular. Vaxtından əvvəl bu barədə danışmaq doğru olmaz. Lakin Əli Həsənovun mətbuata açıqlamasının hərfi həm də onun münasibətinin ruhuna adekvatdırsa, mən istərdim ki, belə olsun, o halda yuxarıda qeyd elədiyim kimi kifayət qədər ciddi proses başlaya bilər və bizim təkliflərimizin xarakteri və tutumu da həmin prosesin ciddilik dərəcəsinə uyğun olar. Ancaq əlbəttə ki, görüş istənibsə, hazır təkliflər paketinin ən azı layihəsi də var".

**"Müxalifət düşərgəsindəki opponentləriniz bu təşəbbüsün məqsədinin mandat alveri olduğunu iddia etməyə başlayıblar. Bu barədə nə deyə bilərsiniz" sualına isə P.Hüseynin cavabı belə oldu:** "Biz addımımızın birmənalı qarşılanmayacağını bilirik və belə reaksiyalar da gözləniləndir. Gəlin qəbul edək ki, hakimiyyət yetkilisi ilə görüş təşəbbüsü kifayət qədər ziddiyyətli məsələdir və odur ki, mənfi reaksiyalara da təbii baxmaq lazımdır. Baxmayaraq ki, bu reaksiyalar içində səmimi olan da var, qərəzdən irəli gələn də. Siyasətdə ictimai rəylə hesablaşmaq olduqca mühüm cəhətdir. Lakin düzgün hesab etdiyin yolla getməyə iradənin olması və bunun ortaya qoyulması ondan az əhəmiyyətli deyil, məsələn, mənim üçün daha əhəmiyyətlidir. "Mandat "ittiham"na gəldikdə isə bu, ucuz şantajdan başqa bir şey deyil. Bu cür xırda şeylərin təkzibinə, yaxud özünə bəraətə vaxt itirməyə ehtiyac belə yoxdur".

**ETİBAR**

# 11 partiya sədrinin piket keçirməsinə icazə verilmədi

**Bakı Şəhər İcra Hakimiyyəti Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyaların rəhbərlərinin iştirakı ilə piket keçirilməsi üçün müraciətə bu gün mənfi cavab verib. Bu barədə Mərkəzə daxil olan AXP-nin sədri Pənah Hüseyn "Yeni Müsavat"a açıqlamasında bildirib. Onun dediyinə görə, meriyanın cavab məktubunda Prezident Administrasiyası, Milli Məclis və Ali Məhkəmənin qarşısında aksiya keçirilməsinin qanuna uyğun olmadığı göstərilib və bu səbəbdən piketin keçirilməsini məqsədəuyğun saymadıqları qeyd olunub.**

Pənah Hüseyn dedi ki, sözügedən mərkəz noyabrın 18-də növbədənkənar toplanacaq və BŞİH-nin cavabından sonra yaranmış vəziyyət müzakirə olunacaq və müvafiq qərar qəbul ediləcək. Qeyd edək ki, Mərkəzə daxil olan 11 partiya sədrinin (Müsavat başqanı Arif Hacılı, KXCP sədri Mirmahmud Mirəlioğlu, ADP sədri Sərdar Cəlaloğlu, AXP sədri Pənah Hüseyn, Azadlıq Partiyasının sədri Əhməd Oruc, VİP sədri Əli Əliyev, ALDP sədri Fuad Əliyev, BAP sədri Elşad Musayev, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər,



Mirmahmud Mirəlioğlu

Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli) noyabrın 19-da siyasi məhbuslara azadlıq tələbi ilə piket keçirilməsinə şərait yaradılması üçün BŞİH-yə müraciət göndərilmişdi.

Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu Bakı Şəhər İcra Hakimiyyətinin noyabrın 19-da Demokratiya və İnsan Haqları Mərkəzinin keçirmək istədiyi aksiyaya razılıq verməməsini pisləyib. "Media forum" saytına açıqlamasında partiya lideri deyib ki, meriya aksiyaya icazə verməməklə qanunu pozur: **"İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanov bizə göndərdiyi cavabda bildirib ki, piketə icazə verilmir. Meriya rəsmisi bu cavabı ilə qanunları pozur. Biz bu məsələni müzakirə edib uyğun qərar çıxaracağıq".**

**E.SEYİDAĞA**

# Millət vəkili Milli Dirçəliş Günü münasibətilə xalqı təbrik etdi

**17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:**





“Əziz soydaşlarım! Sizi Azərbaycanın dövlət müstəqilliyini qazanmasında müstəsna rol oynayan 17 Noyabr - Milli Dirçəliş günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, ölkənin demokratikləşməsi, dövlətçilik ənənələrinin güclənməsi və vətəndaş cəmiyyəti quruculuğunda sizlərə uğurlar diləyirəm.

Bu gün xalqımız üçün olduqca əlamətdar bir gündür. 26 il bundan əvvəl - 1988-ci ilin 17 noyabrında 70 il əsarətdə yaşayan, repressiya və qadağalar məngənəsində sıxılan bir xalqın milyonlarla övlad Sovet imperiyasına etiraz olaraq Azadlıq meydanına toplaşdı və Milli tariximizin şanlı səhifələrindən biri olan Milli Dirçəliş Gününü tarixə yazdı. Həmin günlərdə biz bir millət, xalq olaraq öz iradəmizi ortalığa qoyduq və müstəqilliyə haqqımızın çatdığını bütün dünyaya bəyan etdik. Məhz Meydan hərəkatından başlayan böyük bir mübarizənin məntiqi sonluğu olaraq Sovet İmperiyası süqut etdi və Azərbaycan xalqı öz müstəqilliyinə qovuşdu.

Bir daha sizlərin hər birini Milli Dirçəliş günü münasibətilə təbrik edir və ölkənin demokratikləşməsi, dövlətçilik ənənələrinin güclənməsi və vətəndaş cəmiyyəti quruculuğunda uğurlar arzulayıram.

**Ümid Partiyasının sədri**
**Millət vəkili**
**İqbal AĞAZADƏ**

---

**26 il arxada qaldı o günlərdən.. Təkcə bir meşənin qırılmasına dözə bilməyib milyonların Bakının ən böyük meydanına toplaşdığı günlərdən. O gün hər kəs orada idi. Orta nəsli təmsil edən hər kəsin payı var idi o möhtəşəmlikdə..**



**Rüfət MURADLI**
Ümid Partiyası sədrinin İctimaiyyətlə əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini

# O gün hamımız orada idik..

Amma doğrudan da təkcə bir Topxana meşəsiydimi o möhtəşəmliyin səbəbkarı?

Bəs illərlə Azərbaycanın varının-yoxunun talanmasına, zaman-zaman torpaqlarının qonşulara paylanmasına , sonunda da vətənimiz ən dilbər guşəsində Muğanda, Şirvanda, Gəncəbasarda, Şəkidə, Qubada, Lənkəranda, Bakıda yaşayan vətəndaşımızdan qat-qat rifahda yaşayan “vətəndaşların” həyasızlığına təpki deyildimi bu etiraz?

İllərlə pambıq tarlalarında “pripiska” xatirinə süni gübrələrdən zəhərlənərək həyatını itirən ana-bacılarımızın vaxtsız ölümünə etiraz deyildimi bu insan seli?

Azərbaycanın yeraltı yerüstü sərvətlərinin Rusiya şəhərlərindəki həyat şəraitini yaxşılaşdırmağa yönləndirilməsinə etiraz deyildimi bu izdiham?

SSRİ məkanının hər nöqtəsində rəngimizə görə eşitdiyimiz təhqirlərə, diskriminasiyalara etiraz deyildimi bu birlik?

Aqanbekyanın, Balayanın, Kaputikyanın həyasızlığına rəvac verən Siyasi Büro üzvlərinin ermənipərəstliyinə etiraz deyildimi bu ehtişam?

Azərbaycanda Sovet Hakimiyyətinin qurulmasından üzü bəri Göyçədən, Zəngəzurdan sürgün edilən soydaşlarımızın vətən həsrətinə etiraz deyildimi?

30-cu illərin repressiyalarına, Cavidləri, Müşfiqləri, Mümtazları məhv edib milləti düşüncə sindromuna sürükləyən Moskvaya və onun siyasi rəhbərliyinə etiraz deyildimi?

Və biz o gün etiraz etdik. Dirəndik. Hətta növbəti il sovetlər məkanının siyasi cəhətdən ən aktiv respublikası belə olduq. Hələ bizi Qanlı Yanvar da gözləyirdi qarşıda. Onun da imtahanını şərəflə verdik. Və sonunda Sovetlər çökdü. Fövqəladə vəziyyətdə Sovet tanklarının zəhmindən qorxmadan qaldırdığımız üçrəngli bayraq bir daha parlamentimizin üstündə qərar tutdu. Dünyanın bərabərhüquqlu bir dövləti kimi tanındıq..

İndi 26 il sonra o günlərə dönüb baxarkən fərəh hissi keçirməyə bilmirsən. Bəs gerçəkdən o milyonların bütün istəkləri reallaşdımı?

O birliyi, o möhtəşəmliyi gerçəkdən çox özlədik..



**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014



# Kolumbun kseroksu

Zamin HACI
zaminhaci@mail.ru

**Türkiyənin padşahı Ərdoğan təzəlikcə bir gülməli söz deyibdir, yəqin xəbəriniz vardır. Deyir Amerikanı Kolumbdan üç yüz il qabaq müsəlmanlar kəşf edibdir. Guya Kolumb gəmi səyahəti jurnalında yazıbmış ki, gəldik çıxdıq adaya (indiki Kuba), burda məscid var idi. Halbuki, Kolumb "məscidə bənzər təpə" ifadəsi yazıb və o ərazidə xristianların gəlişindən qabaq müsəlmanların olmasını, yaşamasını isbat edən heç bir fakt yoxdur. Əgər ordan arxeoloji qazıntılar nəticəsində hansısa İbn Abdullah əbu Salavatullah adlı ərəbin təsbehindən bir muncuq tapılsaydı, şübhəniz olmasın ki, indi Harun Yahya tipli lotular bundan cild-cild kitablar qayırardılar, ətraflarına da "Miss Venesuela" Mariannalardan bir dəstə hərəm yığardılar.**

Ancaq müsəlman coğrafiyası elə savadsız vəziyyətdədir ki, burda hansı gopu istəsən yeritmək olur. Bu baxımdan, biz Ərdoğan müəllimin cəfəngiyatını alqışlayaq, deyək lap Amerikanı müsəlmanlar kəşf edibdir. Guya bununla nə dəyişir? Bəlkə 1 milyard 600 milyonluq geridəqalmış müsəlmanlar tərəqqi edib sivilizasiyanın başına keçirlər? Bax, həmin bu 1 milyard 600 milyonun cəmi 2 Nobel mükafatçısı alimi var, bundan danışın. Həmin bu milyard yarımdan çox müsəlman hansı ölkələrdə yaşayır, heç bu barədə fikirləşirsinizmi? Yoxsa detallara varmadan "milyard yarım" deyilir, adam da fikirləşir ki, bəli, bu qədər insanın inancına, rəyinə-zadına hörmətlə yanaşmalıyıq. O zaman buyurun, həmin camaatın hansı dövlətlərdə yaşadığını öyrənin: İndoneziya - 215 milyon, Pakistan - 170 milyon, Hindistan - 160 milyon, İran - 65 milyon, İraq - 25 milyon, Səudiyyə Ərəbistanı - 28 milyon, Mərakeş - 35 milyon, Əlcəzair - 35 milyon, Əfqanıstan - 32 milyon və sairə. Mən hələ böyüklərini yazdım, inanın ki, qalanları da bu dövlətlərdən geri qalmayacaq dərəcədə pis vəziyyətdədir. Bu dövlətlər rüşvətxorluq, insan haqlarının pozulması, insan inkişafı indeksi, adicə əlifbanı öyrənmək kimi göstəricilərdə dünyada ən pis yerləri tuturlar. Amerikanı kəşf eləməkdənsə, Amerikadakı kimi normal, insan azadlığı olan dövlət qura bilməzdinizmi?

Yaxşı da bəhanələr tapırlar quyruq qapı arasında qalanda: "Bu əsl islam deyil", "Müsəlmanlar Avropada yaşayırlar, onlar dinə əməl edir, Camaləddin müəllim də 19-cu əsrdə bu haqda yazmışdır", "Hamısı Amerikanın oyunlarıdır" və sairə. Guya Yerdən azı 56 milyon kilometr uzaqdakı Marsa aparat endirən amerikalılar üçün Suriyadakı hansısa dəvə minən ərəb qəbilələrini bir-biri ilə boğuşdurmaq çox önəmli imiş. Özündən bu qədər razılıq, özünü kainatın mərkəzi saymaq bütün müsəlman toplumlarının, içi bizim ölkə qarışıq - ən böyük faciələrindən biridir. Elə bilirlər göydən zənbillə düşüblər (bu metaforanı nahaq yazmadım), hamı bunların haqqında fikirləşir.

Sonda bu Kolumb əhvalatına aid bir xatirəmi yazım, təhsil nazirimiz Mikayıl Cabbarov da oxusun. Xatirə deyəndə, elə uzaq vaxtda da olmayıb, keçən ayın söhbətidir.

Bir gün uşaq məktəbdən evə gələndə dedi ki, filan miqdarda pul lazımdır. Səbəbini soruşdum. Məlum oldu coğrafiya dərsini keçən müəllim sinifə Kolumbun Amerikanı necə kəşf etməsi haqda təqdimat hazırlamağı tapşırıb. Bunun yolunu da "təsvir edib": gedin məktəbin yanındakı kseroks aparatı işlədən daydayın yanına, sizin üçün internetdən, Vikipediyadan-zaddan vərəqlərə materialları çıxartsın, bunları bir-birinə yapışdırın, gətirin. Mən uşağa izah elədim ki, belə dərs oxumaq olmaz, internet materialını çap edib, bir-birinə tikib gətirməyin mənası nədir? Yaxşısı budur özün Kolumbun səfərlərinin, gəmisinin şəklini çək, xəritələr cız, qısa qeydlər yaz. Uşaq razılaşdı, xeyli oxudu, insafən, bir-iki saat əziyyət çəkib yaxşı da bir təqdimat hazırladı. Ancaq səhəri məlum oldu ki, geri zəkalı coğrafiya müəllimi kseroksda çap edilən hazır internet materiallarını "əla", bizim uşağın sözün əsl mənasında əl işini isə "yaxşı" qiymətləndirib. Qüsur olaraq... Xristofor Kolumbun rəsmində üz cizgilərini yaxşı oxşatmadığını deyibmiş! Elə bil uşaq coğrafiya yox, rəssamlıqdan tapşırıq edibmiş. Uşaqların həvəsini, təşəbbüslərini boğan, yeniliyə qarşı çıxan bir coğrafiyanın coğrafiya müəllimi də elə bu ağılda olmalıdır, qınamıram.

Əsas odur kseroks işləsin, Kolumbu kseroksdan çıxardarıq.

# Eldar Namazov illərlə saxladığı sirri "Yeni Müsavat"a açdı

## ANİF prezidenti: "Mənimçün bu görüşlər Qarabağ uğrunda apardığımız mübarizənin bir hissəsidir"



**Son günlərin əsas müzakirə mövzularından biri Azərbaycan Naminə İctimai Forumun (ANİF) prezidenti Eldar Namazovın Ermənistanın "Razılıq" Siyasi və Hüquqi Təhqiqatlar Mərkəzinin direktoru David Şahnazaryanla birgə bəyanat imzalaması oldu. Finlandiyanın Helsinki şəhərində imzalanan birgə bəyanatda münaqişə tərəflər hərbi ritorikaya, münaqişənin gərginləşməsinə yönələn siyasi və informasiya xarakterli aksiyalara son qoymağa, münaqişənin nizamlanması üçün "Yol xəritəsi"nin hazırlanmasına başlamağa çağırılıb. Ancaq sözügedən bəyanat həm Azərbaycanda, həm də Ermənistanda birmənalı qarşılanmadı.**

Azərbaycanda erməni ilə birgə sənədə imza atan E.Namazovla bağlı kifayət qədər sərt ittihamlar səsləndi. Xüsusilə də həssas dönəmə, Azərbaycan və Ermənistan arasında gərginliyin artığı müddətə təsadüf edən sülh çağırışına aqressiv reaksiya bəlkə də gözlənilən idi. Hər halda, səslənən ittihamlara özünün geniş münasibətini almaq, Şahnazaryanla görüşün cəmiyyətə bəlli olmayan tərəflərini açmaq üçün ANİF prezidentini redaksiyamıza dəvət etdik. "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu, əməkdaşlarımız Aygün Muradxanlı, Azər Rəşidoğlu və Elşad Paşasoyun suallarını cavablandıran qonağımız söhbət əsnasında indiyədək ictimaiyyətə bəlli olmayan bəzi sirləri də bizə açdı. İlk sual baş baş redaktorumuzdan gəldi:

***- Eldar bəy, adınız Şahnazaryanla qoşa çəkildi, böyük hay-küy qopdu. Son vaxtlar adları erməni ilə qoşa çəkilən azərbaycanlıları həbs edirlər. Nə əcəb sizi həbs eləmədilər. Belə bir təhlükə gözləyirsinizmi?***

- Dünən ANS-də də bu sualı mənə vermişdilər. Soruşdular ki, sən David Şahnazaryanla görüşməkdən qorxmursanmı? Dedim bu formatda ki, 10 ilə yaxındır görüşlər keçirilir, mənimlə opponent kimi vaxtilə Ermənistanın baş naziri, müdafiə naziri, xarici işlər naziri olmuş adamlar da iştirak ediblər. Mən öz mövqeyimə arxayınam. Azərbaycanın problemlə bağlı mövqeyini ədalətli, düzgün sayıram və heç kimlə görüşməkdən də çəkinmirəm. Erməni qəzetləri həmin Şahnazaryan və başqa ermənilərin şəkillərini venetka kimi vurub başlığa çıxarırlar ki, bunlar Azərbaycanın beşinci kolonudur, gedib Eldar Namazovla Azərbaycanın xeyrinə və rəsmi İrəvanın ziddinə olan bir sənəd imzalayıblar, ona görə də satılıblar. Mən dediyimi bu gün də təkrarlayıram, qoy onlar məndən qorxsunlar, mən niyə onlarla görüşməkdən qorxmalıyam. (gülür)

***- Bəy, özünüzlə kürü aparmışdınız?***

- Yox. Bizim diplomatiyamız kürü üzərində qurulmur. (gülür)

***- Çox maraqlıdır, Şahnazaryanla görüşdən danışılır, tənqid olunur və s. Amma orda nə baş verir? Tərəflər bəyanat mətnini, ya ortaya qoyulacaq xəbəri öncədənmi razılaşdırır? Bir erməni ilə oturub danışmaq özü necə bir hissdir?***

- Həqiqətən də söhbət pərdə arxasında nə baş verir, gərək bunlar cəmiyyətə məlum olsun. Bizim o bəyanatımızda da bir cümlə var ki, bütün bu danışıqlar prosesi şəffaf, cəmiyyət üçün açıq olsun, cəmiyyəti belə qaranlıqda saxlamaq olmaz. Fərqi yoxdur, prezidentlər, xarici işlər nazirləri görüşürlər, yoxsa hansısa rəsmi danışıqlarda iştirak edən məmurlar, vətəndaş cəmiyyətinin nümayəndələri, - gərək hər şey cəmiyyət üçün şəffaf olsun. Təəssüflər olsun ki, nə rəsmi danışıqlar məsələsində, nə də vətəndaş cəmiyyətinin görüşləri ilə bağlı cəmiyyət üçün tam açıq və şəffaf olmadığına görə müxtəlif yozumlar, suallar yaranır. Məsələ kifayət qədər ciddidir və biz müzakirə etdiyimiz problemlər kifayət qədər ağırdır. Gərək biz hərtərəfli müzakirə edək ki, cəmiyyətə də təkcə bizim görüşlərimizdə yox, ümumiyyətlə, Qarabağ problemi ətrafında nələr baş verdiyi aydın olsun. Çünki biz vacib, həlledici məqama yaxınlaşırıq.



### "Bu projenin arxasında o vaxt ABŞ və Rusiya birgə dayanırdı"

***- Buyurun, Eldar bəy, aydınlaşdırın.***

- Tez-tez "xalq diplomatiyası"ndan danışırlar, yaxud vətəndaş cəmiyyətinin nümayəndələri İrəvan, başqa yerlərdəki tədbirlərə qatılırlar, gəncləri, alimləri, jurnalistləri görüşdürürlər. Mənim iştirak etdiyim format fərqlidir, o tədbirlərdə iştirak etmirəm. Bu günə kimi Ermənistana da hansısa bir səfərim olmayıb. İlk dəfə bunu mənə təklif edəndə dedim inşallah münaqişə həll olunar, torpaqlar azad olunar, qaçqınlarımız yurd-yuvalarına qayıdarlar, ondan sonra mən səfər edərəm. İndiki halda bu, mümkün deyil. Ancaq mən ora səfər edənləri də qınamıram. Fərdi yanaşmaq lazımdır, kim gedir, hansı mövqedən çıxış edir, hansı tədbirdə iştirak edir. Mənim danışıqlarda qatıldığım format fərqlidir. 2000-ci illərin əvvəllərində belə bir təklif irəli sürülmüşdü: Ermənistanda və Azərbaycanda vaxtilə rəsmi danışıqlarda iştirak edən təcrübəli adamlar, sabiq dövlət məmurları, hansı ki, cəmiyyətdə müstəqil fəaliyyət göstərirlər, onların görüşlərini təşkil etmək lazımdır. Ola bilsin ki, rəsmi danışıqlarda hansısa irəliləyiş əldə olunmayanda onların razılığa gəldiyi məsələlərdən rəsmi danışıqlarda da istifadə etmək olar. Bu projenin arxasında o vaxt ABŞ və Rusiya birgə dayanırdı. ABŞ-dan keçmiş dövlət katibinin müavini, çox təcrübəli diplomat cənab Sanders, Rusiya tərəfindən də

### "Erməni qəzetləri həmin Şahnazaryan və başqa ermənilərin şəkillərini venetka kimi vurub başlığa çıxarırlar ki, bunlar Azərbaycanın beşinci kolonudur, gedib Eldar Namazovla Azərbaycanın xeyrinə olan sənəd imzalayıblar"

Vladimir Putinin müsəlman dünyası üzrə müşaviri akademik Vitali Naumkinin iştirakı ilə silsilə görüşlər keçirildi. Həmin görüşlərdə də mənimlə üzbəüz oturub müzakirə aparan adamlar da vaxtilə vəzifə sahibləri olub. Mən müxtəlif illərdə Ermənistanın keçmiş baş naziri, müdafiə, xarici işlər nazirləri, dövlət müşavirləri və s. görüşmüşəm. İlkin mərhələdə heç Şahnazaryanın orda iştirakı da olmamışdı; bu, 10 il əvvəl başlayan proses idi. O dövrdə də daim bizim müzakirə etdiyimiz məsələləri həm ABŞ, həm də Rusiyadan olan vasitəçilər birbaşa Minsk Qrupunun həmsədrləri ilə müzakirə edirdilər. Bizim müzakirə etdiyimiz bəzi ideyalar sonra rəsmi Minsk Qrupu çərçivəsində prezidentlərin də müzakirələrinə çıxarılmışdı, sonra da sənəddə öz təsdiqini tapmışdı. Bir müddət sonra bu təşəbbüsü Avropa strukturları ələ aldı, artıq onlar o tədbirləri təşkil etməyə başladı.

***- Bunların hamısında siz olmusunuzmu?***

- Əksəriyyətində olmuşam və əsasən Azərbaycan tərəfindən danışıqlar mənə həvalə olunub.

***- Nəyə görə sizə? Siz "dərin dövlət" təmsilçisisinizmi?***

- Əvvəla, mən 1988-ci ildən Qarabağ prosesində iştirak edirəm. O zaman da heç bir dövlət vəzifəsində olmadığım halda məni dəvət edirdilər. Mən Boris Yeltsin və Nazarbayevlə Qarabağa da uçmuşdum, danışıqlarda iştirak etmişdim. ATƏT-in Helsinkidə keçirilən Qarabağ tədbirinə dövlət məni tək göndərirdi. Çox xahiş etdim ki, mən rəsmi şəxs deyiləm, Elmlər Akademiyasının işçisiyəm, ona görə də heç olmasa yanımda bir neçə rəsmi şəxs olsun, qoy onlar prosesə müdaxilə etməsinlər, mən özüm bu danışıqları aparacağam... Qarabağ uğrunda bu savaşda əlindən gələni etmək hamımızın borcudur və bununla öyünmək olmaz. Ancaq mən çox şeyləri heç mətbuata da demirəm, hesab edirəm ki, borcumu yerinə yetirmişəm... Bir neçə gün sonra Qarakənd yaxınlığında vurulan vertolyot hadisəsinin 23-cü ildönümü olacaq. Mən bunu heç vaxt mətbuata deməmişəm, ilk dəfə sizə deyirəm. (Mövzunu bir az da genişləndirir) 1990-cı ilin mayında Xankəndində hərbi qarnizonun qarşısında general Safonov - hansı ki, Rostovda ermənilər onu öldürmək istəyirdilər, səhvən başqa bir generalı vurdular -fövqəladə vəziyyət şəraitində erməni separatçılarına qarşı apardığım işlərə görə mənə saat və diplom bağışladı. O zaman ailəm də bilmirdi haradayam; iki gündən bir zəng edib evə deyirdim ki, Zaqatalada ekspedisiyadayam... Bir dəfə də zəng edəndə anam ağladı. Soruşdum nə olub. Dedi ürəyimə dammışdələrində qurtardı. Bizə dedilər ki, səhərisi gün vertolyotla Qarabağa uçmalıyıq. Hamı maşınlarla Bakıya qayıdırdı. Mən dedim ki, neçə vaxtdır öz kəndimdə olmamışam, ora da 20 dəqiqəlik yoldur, gedim 2-3 saatlıq qohum-əqrəbaya dəyim, axşam Tiflis qatarına minib özümü Bakıya çatdıraram... O zaman bizim qərargahımız Milli Məclisdə yerləşirdi. Oradan vertolyot dayanacağına getməli və uçmalıydıq... Getdim qohum-əqrəba ilə görüşdüm, axşam da qatara mindim, səhər tezdən birbaşa Milli Məclisə getdim. Rəhmətlik Vəli Məmmədovla siqaret çəkməyə çıxdıq. Dedi Eldar, çox yorğun görünürsən. Bildirdim ki, birbaşa vağzaldan buraya



***-Deməli, Vəli müəllim olmasaydı, sizinlə bu söhbəti eləməyə də bilərdik. Faktiki olaraq sizi xilas edibmiş ki...***

- Təbii. Bu faktı ilk dəfə açıram. Elə adamlar var, 5 ildən artıq müharibə dövründə müxtəlif bəhanələrlə 5 dəqiqə vaxt tapmayıblar ki, cəbhəyə yaxın getsinlər. Ancaq indi hamısı sinəsinə döyür.

***- Erməni ilə oturub danışıqlar aparmaq və vətənpərvərlik... Bunlar bir az ziddiyyətli məsələlər deyilmi?***

- O baxır sən nə və nə üçün danışırsan. 10 ildən artıq davam edən danışıqlar zamanı mən yalnız iki dəfə hansısa sənədin altından imza atmışam. O vaxt ki, bizim xeyrimizə oldu-

### "Biz 1997-ci ildə mərhələli planın icrasına başlasaydıq, Qarabağ probleminin 90 faizi artıq həllini tapmışdı, status məsələsi də gələcəyə qalacaqdı"

dı ki, məni aldadırsan, sən Xankəndindəsən. Sən demə Bakıdan gələn jurnalist Xankəndindən reportaj hazırlayıb və orada da yazıb ki, Eldar Namazov Xankəndindədir və filan işlərlə məşğul olur. Anam da bunu qəzetdən oxuyubmuş...

Qeyd: Eldar Namazov bu məqamda 1991-ci ilin 20 noyabr hadisəsi, erməni terrorçularının Ağdam səmasında vurduğu vertolyotla bağlı sensasion faktı ilk dəfə qəzetimizə açıqlayır:

- 19 noyabr 1991-ci ilə təsadüf edən danışıqlarda nümayəndə heyətinə məni daxil etmişdilər. Bizim əvvəlcə Qazaxda Ermənistanla sərhəddə danışıqlarımız oldu. Tofiq İsmayılovdan başqa həmin vertolyotda olan adamların hamısı ermənilərlə danışıqlarda iştirak edirdi. Qazaxda danışıqlar axşamüstü saat 19 radə gəlmişəm, heç evə dəyməmişəm. Dedi bəlkə bu gün sən bizimlə getməyəsən, onsuz da neçə gündür yollardasan. Qayıtdım ki, Vəli müəllim, elə şey olarmı, yolu bir yerdə başlamışıq, bir yerdə də başa vurarıq. Çox gözəl, həssas insan idi... Aradan bir müddət keçdi, mənə yaxınlaşdı: "Sən harda olursan?" Dedim, Yasamalda. Dedi get evə, özünə gəl, uçuş vaxtını təyin edəndən sonra mən zəng edərəm, təcili gələrsən, birbaşa uçarıq. Qayıtdım ki, Vəli müəllim, birdən məni aldadıb zəng etməzsiniz... Güldü, dedi nə danışırsan, arxayın ol. Telefon nömrəmi ona verib getdim evə... Xeyli keçdi, zəng gəlmədi. Özüm Milli Məclisə zəng etdim. Dedilər sən gedəndən yarım saat sonra onlar çıxdılar... Üstündən bir neçə saat sonra xəbər gəldi ki, vertolyot vurulub.

ğuna əmin olmuşam. Bir müddətdən sonra mən beynəlxalq təşkilatlara xəbərdarlıq etmişdim ki, Ermənistanda Qarabağ danışıqları ilə bağlı üç mövqe var: rəsmi İrəvanın mövqeyi, bu, Köçəryan-Sərkisyanın mövqeyidir. Onlar deyir Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini tanımalıdır. Əvəzinə biz 5 rayonu şərtsiz azad edirik, Kəlbəcər və Laçınla bağlı xüsusi bir status olur. Təbii ki, biz bununla razılaşa bilmərik. Ancaq ermənilər Sərkisyan və Köçəryanın mövqeyini iki cinahdan tənqid edirlər. Bir qrup deyir Qarabağ da, Dağlıq Qarabağ da, ətraf 5 rayon da bizimdir, onların heç biri azad oluna bilməz və s. Daha liberal cinahdan isə Sərkisyanın mövqeyini tənqid edənlər deyir ki, Azərbaycan heç vaxt siz dediyinizlə razılaşmayacaq, güclənəcək, nə vaxtsa müharibə aparmağa məcbur olacaq. Ona görə də ən düzgün yol 1997-ci ildə təklif olunan mərhələli plan idi ki, o plana həm Heydər Əliyev hakimiyyəti, həm Ter-Petrosyan hakimiyyəti razılıq vermişdi. Ermənistanda dövlət çevrilişi olduğu üçün plan həyata keçmədi. 17 il əvvəl isə Köçəryan-Sərkisyan cütlüyü hakimiyyətə gəldi və elan etdilər ki, mərhələli plan Ermənistan üçün məqbul deyil. Həmçinin, erməni xalqını əmin edirdilər ki, onlar Azərbaycanı Dağlıq Qarabağın müstəqilliyini tanımağa məcbur edəcəklər.

***- Bunun arxasında Rusiya dururdu...***

- Təbii ki, Rusiya da bunun arxasında dayanmışdı. Mən bu mövqeləri beynəlxalq təşkilatlar üçün açıb onlara izah etdim ki, bizim söhbətimiz bu üçüncü qrupla alınır. Ona görə ki, mərhələli planı həm rəsmi Bakı dəstəkləyir, həm o vaxtı hakimiyyət və rəsmi İrəvan da dəstəkləmişdi. İndi də həmin mövqedə olan kifayət qədər insanlar var. Onlar da hesab edirlər ki, 17 ildir əvvəlcə Köçəryan, sonra Sərkisyan erməni xalqını aldadır və 17 il itirilmiş illərdir. Biz 1997-ci ildə mərhələli planın icrasına başlasaydıq, artıq Qarabağ probleminin 90 faizi artıq həllini tapmışdı, status məsələsi də gələcəyə qalacaqdı. Beynəlxalq təşkilatlara da demişəm ki, erməni tərəfdən kim radikal mövqedən çıxış edirsə, onlarla vaxt itirmək, danışmaq mənimçün məqbul deyil. Ancaq kimlərləsə mərhələli plan üzrə razılığa gəlmək olarsa, həmin görüşlərdən qaçmıram. Mənimçün də o görüşlər həm də bizim Qarabağ uğrunda apardığımız mübarizənin bir hissəsidir. İstər dövlət, istər cəmiyyət tərəfindən aparılan mübarizənin. Bunun da məğzi ondan ibarətdir ki, biz dünya ictimaiyyətini, beynəlxalq qurumları inandırmalıyıq ki, ortada yeganə sülh yolu mərhələli plandır. Bu mərhələli plana Azərbaycan hakimiyyəti də razıdır, o vaxt müxalifət də bəyan etdi ki, bu planla razılaşır, Ermənistanda da mərhələli plana razı olan qüvvələr, ictimai qrupları da var. Ancaq Sərkisyanın təklif etdiyi variantı Ermənistanda tənqid edənlər var, Azərbaycanda da kimsə tapılmaz ki, Köçəryan, ya Sərkisyanın dediklərini qəbul etsin. Şəxsən mənim beynəlxalq aləmdə apardığım işlərimin məğzi ondan ibarətdir ki, 17 ildir Köçəryan, sonra da Sərkisyan sizi də aldadır, öz millətini də. Paket variantı, Dağlıq Qarabağın "müstəqilliyinin" Azərbaycan tərəfindən tanınmaq məsələsi mümkün deyil, xülyadır.

***- Yəni Sərkisyan iqtidarında mərhələli nizamlamanı qəbul edən kimsə yoxdur?***

- Mən ümumi mənzərəni deyirəm, hər bir fərdin mövqeyi ilə tanış deyiləm. Paket, yoxsa mərhələli plan mübarizəsi bu gün də davam edir. Adlarını çəkmirlər. Baxsanız ümumiyyətlə, sülh planlarının 95 faizi eynidir. Yeganə fərq budur: statusu əvvəldən müəyyənləşdiririk, yoxsa sonraya qalır? Azərbaycan bu məsələdə həddindən artıq böyük güzəştə gedib. Mən hakimiyyətdə çalışdığım dövrdə çoxlu sayda sənədlər çap olunub. Heydər Əliyevin rəhbərliyi dövründə Dağlıq Qarabağın statusunun referendum yolu ilə müəyyənləşdirilməsi prinsipi olmayıb.

***- Siz deyirsiniz ki, bu, Azərbaycan üçün ziyanlıdır?***

- Mən əminəm. Ermənilər Dağlıq Qarabağın "müstəqilliyinin" yolunu referendumda görürlər. Mən Minsk Qrupunun həmsədrləri ilə də görüşürəm. İldə bir neçə dəfə belə görüşlər olur. Həmin ölkələrin səfirləri ilə də görüşürəm. Bu gün (17 noyabr - E.P.) də söhbətdən sonra mənim səfirlərlə görüşüm var, beynəlxalq təşkilatlarla da görüşlər olur. Neçə ildir onlara izah edirəm ki, Minsk Qrupu Dağlıq Qarabağın statusunu referendum yolu ilə müəyyənləşdirmək ideyasını böyük səhvə yol verərək ora əlavə edib. Onlar məndən soruşurlar ki, bəs referendum çox demokratik prosedurdur, niyə onun tətbiqinə razılıq vermirsiniz? Dedim ki, mən razıyam, referendum demokratik prosedurdur, konfliktlərin həllində istifadə etmək olar. Ancaq baxır nə cür?

***- Nə cür? Sizin konkret hansı təklifiniz var?***

*(Davamı növbəti sayımızda)*

❑ Elşad PAŞASOY
FOTO: Məhəmməd TÜRKMƏN





### "Heydər Əliyevin rəhbərliyi dövründə Dağlıq Qarabağın statusunun referendum yolu ilə müəyyənləşdirilməsi prinsipi olmayıb"

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# Tofiq Heydərov bütün suallara aydınlıq gətirdi

**"Zirvə" Beynəlxalq İdman Klubunun prezidenti, "AAAF-İnşaat MMC"-nin təsisçisi və AAAF Park Yaşayış Kompleksinin qurucusu, ağır atletika üzrə SSRİ İdman ustası, Atlanta Olimpiya Oyunlarının iştirakçısı Tofiq Heydərov son vaxtlar onunla və rəhbərlik etdiyi təşkilatla, kompleksə bağlı danışılan bütün məsələlərə aydınlıq gətirib. Onunla müsahibəni təqdim edirik.**



# "AAAF Park idmanla bağlı bir layihədir"

## "Başımızı aşağı salıb işimizi görürük, çünki bilirik ki, istənilən ittihama cavab ortaya qoyulan işdir"

***- AAAF Park layihəsinin yaranma səbəbi haqda nə deyə bilərsiniz?***

- AAAF Park idmanla bağlı bir layihədir. Burada sağlam həyat tərzi - idmanla yaşayış evlərinin vəhdəti təmin edilib. Məram isə birdir: yenicə məşqlərə başlamış bir idmançının zirvələrə yüksəlməsi üçün nə şərait lazımdırsa, bir məkanda, kompleks şəklində təmin edilsin. Ən kiçik yaşlı uşaq belə əvvəlcə "Zirvə Uşaq Akademiyası"nda gimnastika, üzgüçülük, şahmat, cüdo və başqa idman növləri ilə müntəzəm məşğul olub, yarışlarda iştirak etmək hüququ qazana bilir. 6 yaşdan sonra isə artıq idman təmayüllü, elə kompleksimizin ərazisində olan "Zirvə liseyi"ndə peşəkar məşqçilər tərəfindən ən yüksək səviyyədə təmin olunmuş şəraitdə məşqlərini davam etdirməyə nail olurlar. Azərbaycanın ağırlıqqaldırma üzrə yığma komandasını peşəkar idmançılarla təmin edən "Zirvə" Beynəlxalq İdman Klubunun əsas təlim-məşq bazası da məhz bizim AAAF Park-dır. Yəni biz burada sakin olan hər kəsin sağlam həyat tərzi ilə yaşaması, uşaqlarının sağlam, vətənə layiqli övlad kimi böyüməsi üçün əlimizdən gələni etməyə çalışırıq. Ümumiyyətlə, bu layihə mənim bir idmançı, məşqçi və klub rəhbəri işlədiyim dövrlərdə qarşılaşdığım problemlərdən yaranan bir layihədir. İdmanın inkişafına nə lazımdırsa, bu layihəyə daxil edilib, mükəmmələ çatdırılıb.

***- "Problemlərdən yaranan layihədir" deyəndə nəyi nəzər tutursunuz?***

- Bilirsiniz ki, müstəqilliyimizin ilk illərində idmanda vəziyyət çox pis idi. Normal məşq etməyə belə zallarımız yox idi. Heç bir təlim-məşq toplanışı olmadan 1994-cü ildə İstanbulda keçirilən dünya çempionatında ilk dəfə olaraq respublikamızı öz hesabımıza yarışa getməklə təmsil edə bildik. Ölkədə ağır atletika üzrə məşq edən idmançı qalmamışdı. Tanınmış atletlərimiz Asif Məlikov və Əhməd Şahbazov Ukrayna, Elxan Süleymanov Türkiyəyə gedərək məşq edə bilmək üçün respublikanı tərk etmişdilər. O vaxt təkcə mən yetirmələrimlə sona qədər mübarizə aparırdım. 1995-96-cı illərdə Avropa çempionatında 5-ci yeri tutaraq Olimpiya Oyunlarına lisenziya alandan sonra bizim üçün şəraitlər qurulmağa başladı. "Neftçi" İdman Sağlamlıq Mərkəzinin (İSM) Suraxanıdakı İdman-Olimpiya Oyunlarına hazırlıq üçün bizim istəyimizlə 3 aya inşa edilərək istifadəmizə verildi. Açılış mərasimində iştirak edən ümummilli liderimiz Heydər Əliyev mənim Olimpiya Oyunlarındakı çıxışımı yüksək qiymətləndirərək, bizim üçün şəraitin daha da yaxşılaşdırılması üçün tapşırıqlar verdi. Bir neçə ay sonra prezidentimiz Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinə, "Azərbaycan Hava Yolları"nın rəhbəri Cahangir Əsgərov isə Azərbaycan Ağır Atletika Federasiyasının prezidenti seçildilər. Bununla da ağır atletika və ümumilikdə idmanımızda çətinliklər aradan qaldırılmağa başladı. Artıq bu gün Azərbaycan dünyanın ən güclü inkişaf etmiş idman ölkəsinə çevrilib.

***- Təsis etdiyiniz "Zirvə" İdman Klubunun rayon və kəndlərdə çoxlu idman kompleksləri fəaliyyət göstərir. Yüzə yaxın məşqçi saxlanılması və ildə 16 dəfə yarışların keçirilməsi necə maliyyələşdirilir?***

- Əvvəllər bu vəsaitləri tikinti şirkətimizin qazancı hesabına edirdik. İndiki zamanda bunu etmək çox çətindir. "AAAF Park" layihəsi bizim bütün bu problemlərimizi həll edən layihədir. "Zirvə" İdman Komplekslərinin ətrafında inşa etdiyimiz yaşayış evlərində yaşayan sakinlərimizə pullu idman xidmətləri göstərməklə klubumuz çox rahat şəkildə maliyyələşə biləcəkdir. Hazırda bütün idman komplekslərimizin yanında bu layihənin həyata keçirilməsi üçün işlər gedir. 2006-cı ildən fəaliyyətinə başlayan "Zirvə" İdman Klubu Azərbaycan idmanında liderlərdən birinə çevrilib. Peşəkar idmançılar tərəfindən təsis edilmiş, müstəqil beynəlxalq statusa malik bir idman klubu olan "Zirvə", idmanın düzgün inkişaf etdirilməsi və sağlam həyat tərzinin təkmilləşdirilməsi, eyni zamanda dövlətimizin idmana qayğı siyasətinə öz dəstəyini vermək məqsədi ilə yaradılmışdır. Azərbaycan ağır atletikasının şəksiz lideri olan "Zirvə" İK qısa fəaliyyəti dövründə onlarla gənc və yeniyetmə Avropa və dünya çempionatlarının qalib və mükafatçılarını yetişdirməyə müvəffəq olmuşdur. 2013-cü ildə klubun ağırlıqqaldıranları beynəlxalq yarışlardan 32 medalla geri dönüblər. 13 qızıl, 7 gümüş və 12 bürünc medal qazanan ağır atletlər, bu qələbələrlə yanaşı 7 də rekordu təzələyərək, adlarını tarixə yazdıra biliblər.

***- Klubun digər respublikalarda da - Polşa, Ukrayna, Moldova, Rusiya, Türkiyə, Bolqarıstan, Gürcüstan və digər ölkələrdə bölmələri açılır. Bu addım idmanımızın inkişafına nə dərəcədə köməklik göstərəcəkdir?***

- Bilirsiniz ki, ölkəmizdə idmana qayğını ümummili liderimiz Heydər Əliyev öz üzərinə götürmüşdü və hər dəfə görüşəndə "bu qayğını siz daima hiss edəcəksiniz" deyirdi. Həqiqətən də idmançılar hər addımda bu qayğını hiss edir. Artıq bu qayğıdan dünya idmanı belə faydalanmağa başlayıb. İlk Avropa Oyunlarının Bakıda keçirilməsi, müxtəlif idman növləri üzrə Avropa və dünya çempionatlarının təşkilinin ölkəmizə həvalə olunması cənab prezident İlham Əliyevin bu sahədə apardığı siyasətin necə düzgün olduğuna ən gözəl nümunədir. Biz idmançılar və mütəxəssislər də öz idman növümüzün inkişaf etdirilməsində dövlətimizə dəstək olmalıyıq. Sualınıza gəlincə, ağır atletika üzrə klublararası beynəlxalq yarışların keçirilməməsi bizi bu addımları atmağa məcbur etdi. Bu layihə ilə kiçik yaşlı uşaqlarımızın artıq 12 yaşdan beynəlxalq səviyyədə təşkil olunmuş yarışlarda ildə 6 dəfə iştirak etmək hüququ qazana bilirlər. Qonşu respublikalarımızda təlim-məşq toplanışları keçirəndə böyük məbləğdə vəsait xərclənirdi. Artıq respublikamızın atletləri pul ödəmədən hazırlaqlarını bizim digər respublikalarda olan bazalarımızda müntəzəm olaraq keçirə biləcəklər. Bu da idmanımızın inkişafına daha da kömək göstərəcəkdir.

***- Avqustun ayında "Zirvə" Beynəlxalq İdman Klubları arasında ağır atletika üzrə 1-ci dünya çempionatı keçirildi. Bu tədbiri xarici respublika ictimaiyyəti və federasiya rəhbərləri necə qarşıladılar?***

- Çox müsbət. Yarışa qatılan 150-yə yaxın idmançı və məşqçi AAAF Park Yaşayış Kompleksini ilk dəfə görəndə təəccüblərini gizlədə bilmədilər. Ağır atletlər üçün dünya miqyasında yaradıla biləcək ən yüksək şəraitin olduğunu dilə gətirdilər. Çox qısa müddət ərzində inşa etdiyimiz yeni yarış zalı da onları valeh etmişdi. 10 ölkədən gələn idmançıların qalma, qidalanma, yol, bir sözlə bütün xərcləri ödənildi, onların ən kiçik istəyi belə yerinə yetirildi. Beynəlxalq səviyyəli yarış keçirdik. Gələnlər arasında tanınmış sabiq idmançılar, eləcə də rəhbər şəxslər vardı. Onlar burada şəraitin qurulmasında əməyi olan hər kəsə, eləcə də Azərbaycan Respublikası rəhbərliyinə təşəkkürlərini bildirdilər. Məlumat üçün qeyd edim ki, bütün iştirakçılar bizim ölkə xaricindəki klublarımızın il ərzində seçilən və yarışlarda fərqlənənlər arasından seçilmişdi. Filiallar beynəlxalq layihəmiz olan "Zirve İnternational Sport Clubs" çərçivəsində qurulduğundan oralarda da keçirilən bütün tədbirlərdə Azərbaycan bayrağı qaldırılır. Yadıma gəlir, 1989-cu ildə SSRİ birinciliyində üçrəngli bayrağımızı qorxa-qorxa sinəmdə daşıyaraq yarışa çıxmış, böyük çətinliklər yaşamışdım. Həmin problemlərdən sonra bugünkü vəziyyətə görə hər an Allaha şükür etməliyik. Bizim klub çalışır ki, dəstəyə ehtiyacı olan bütün ağır atletika ailəsinə yaxından kömək etsin. Çünki ağır atletikanın vəziyyəti çox yerlərdə yaxşı səviyyədə deyil.

***- Gördüyünüz bu işlərdə sizə mane olanlar çoxdur. Son vaxtlar mətbuatda sizin haqqınızda yalan məlumatlar buna nümunə ola bilər. Bu haqda nə deyə bilərsiniz?***

- Uzun illərdir respublikamızda bir çox şirkətlərə rəhbərlik edirəm. Heç vaxt səbəbsiz olaraq işlərimizə müdaxilə edilməsini görməmişəm. Kənardan baxana başqa cür görünə bilər. Amma biz bu müdaxilələrin səbəbini və günahını özümüzdə axtarmışıq. Həqiqətən də səbəb olan səhvi tapandan sonra işlər yenə qaydası ilə getdiyinin şahidi olmuşuq. Azərbaycan iş gördüyümüz digər respublikalarla müqayisədə çox inkişaf edib. Sadəcə, bir çox iş adamları və işə götürdükləri işçi kadrlar hər biri işi görərkən dövlət və müdiriyyəti aldatmağa çalışırlar. Və bunun da nəticəsi çox acınacaqlı bitir. Biz belələrindən deyilik. İşimiz həmişə qanun çərçivəsində görmüşük, böyük vergi ödəyicisiyik, məqsədimiz də yalnız pul qazanmaq yox, həm də ölkəmizə xidmət etməkdir. Başqaları belə etmədiklərindən bizlərə paxıllıq edir və qaralamağa çalışırlar. Ancaq haqq həmişə yerini tapır. Biz halal adamlarıq, qazandığımız hər qəpik haláldır. Səhvi özümüzdə axtarıb kimisə günahlandırmırıq. Başımızı aşağı salıb işimizi görürük. Çünki bilirik ki, istənilən ittihama cavab ortaya qoyulan işdir.

Biz iş adamları və klub rəhbərləri öz işimizi düzgün qurmaqla respublikamızın inkişafına xidmət etməliyik.

***- Yazılanlar içərisində daha çox sizin bütün işlərinizdə AZAL-ın prezidenti Cahangir Əsgərov və Beynəlxalq Bankın rəhbəri Cahangir Hacıyevə bağlayırlar. Bunlar həqiqəti nə dərəcədə əks etdirir?***

- Bilirsiniz ki, ağır atletikada klubumuzun uğurları nəzərə alınaraq 2010-cu ildə Azərbaycan Ağır Atletika Federasiyasına vitse-prezident seçildim. Özüm də sabiq ağır atlet, Olimpiya Oyunlarının iştirakçısı, İdman ustasıyam. 2011-ci ildə işlərimiin çoxluğunu nəzərə alaraq, öz xahişimlə postumdan ayrıldım. Ancaq ağır atletikaya köməyimi dayandırmadım və xidmətlərimi indiyə qədər də klub səviyyəsində davam etdirirəm. Yaratdığım bütün şirkətlərin - istər tikinti, istərsə də idman - nizamnaməsində məqsədin ağır atletikanın inkişaf etdirilməsi olduğu xüsusi qeyd olunur. Cahangir Əsgərovla əlaqəmiz yalnız bu müstəvidədir. Mən bir ağır atletika klubunun rəhbəri, o isə federasiya prezidentidir. Başçılıq etdiyim "AAAF İnşaat MMC", AAAF Park Yaşayış Kompleksi və "Zirvə" İdman Klubunun onunla heç bir əlaqəsi yoxdur. Azərbaycan Beynəlxalq Bankının (ABB) prezidenti Cahangir Hacıyevə gəlincə... Mən Cahangir müəllimi bir dəfə olsun belə görməmişəm. Əvvəllər başqa banklarla işləyirdik. Sonradan ABB-nin həm dövlət bankı olması, həmçinin düzgün işləməsini nəzərə alaraq, kreditləri onlardan götürmək qərarına gəldik.

***- Sizin müxtəlif dini qruplaşmalara dəstək verməyiniz barədə də çox şeylər yazılmışdı...***

- Azərbaycan tolerant ölkədir. Biz də "AAAF Park" olaraq sakinlərimiz arasında fərq qoymadan bu siyasəti davam etdiririk. Ancaq Azərbaycanda bundan istifadə edən qüvvələr var. Bir neçə idmançını yoldan çıxarıb öz çirkin məqsədləri üçün istifadə etmək istəyirlər. Biz minlərlə idmançını maliyyələşdiririk ki, içərisindən bir, iki Olimpiya çempionu çıxsın. Sonunda bizim əziyyətlər boşa çıxır. Məcbur olduq, səhv yola düşən bir neçə tanınmış idmançını AAAF Park ərazisindən kənarlaşdıraq. Buna görə bizə təzyiqlər də oldu. Bizim şirkətlərimiz çox inkişaf edib. Hər təbəqədən olan insanlar bizə müraciət edir, biz də onların hamısı ilə bərabər rəftar edir, hamının yanında hörmətimizi saxlayırıq. Məmurlar, idmançılar və dindarlarla da öz dillərində danışırıq. Ona görə də məni gah hansısa məmurun adamı, gah vəhabi, gah nurçu, gah da ki İranın adamı kimi qələmə verirlər. Mən xahiş edirəm, heç kim bu şayiələrə inanmasın, heç kəsi mənim adımla birgə hallandırmasınlar. Din məsələsinə gəldikdə, mən idman mütəxəssisiyəm. Azərbaycanda qadın ağır atletikasını mən ortaya çıxarmışam. Rəhbərlik etdiyim klubda da bədii gimnastika ikinci bir idman növü kimi uzun illərdir ki, fəaliyyət göstərir. Məndən çətin dindar ola. İbadətimi özüm üçün anladığım qədər edə bilirəm və bütün işlərimdə də Allahın adını ən başda və uca tuturam.






YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014




# Milli Strateji Düşüncə Mərkəzi Dirçəliş Gününü müzakirə etdi

## İsa Qəmbər: "Azərbaycanda milli istiqlal uğrunda mübarizə heç zaman dayanmayıb"

**Noyabrın 17-də Milli Strateji Düşüncə Mərkəzinin (MSDM) Diskussiya Klubu ilk müzakirəsini təşkil edib. Müsavat Partiyasının qərargahında keçirilən tədbirdə MSDM sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, AXP sədri Pənah Hüseyn, DEVAMM sədri Hacı İlqar İbrahimoğlu, sabiq daxili işlər naziri İsgəndər Həmidov və digər siyasi və ictimai xadimlər, gənclər iştirak edirlər. İsa Qəmbər çıxış edərək 17 noyabrın Azərbaycan tarixindəki rolundan danışıb. Daha sonra həmin günlə bağlı hazırlanan sənədli film nümayiş etdirilib.**





Film nümayişindən sonra **tarixçi İsmayıl Musa** 17 noyabrın ölkə tarixində və siyasi həyatındakı rolu ilə bağlı məruzə ilə çıxış edib. O, Meydan hərəkatının yaranma səbəblərindən danışıb və bildirib ki, Dağlıq Qarabağa erməni iddiaları və Qarabağda baş verən proseslər böyük bir hərəkata stimul vermiş olub. O, həmçinin qeyd edib ki, 1988-ci ilin fevralından dekabrına qədər gedən proses kortəbii xalq hərəkatının ilk mərhələsinin zirvəsi hesab olunur.

İ.Musanın sözlərinə görə, bu hərəkatın xalqın iradəsindən asılı olmadığı, kənardan sırınma proses olması ilə bağlı deyilənlər yalan iddialardır. O, meydan hərəkatını yönləndirənlər arasında Nemət Pənahlının rolunu xüsusi qeyd edib. "Əsas məsələ o hərəkatı başlatmaq idi",- deyən tarixçinin fikrincə, meydan hərəkatını səciyyələndirərkən nəticənu unutmaq olmaz: "Həmin meydanda Azərbaycan xalqının özünə, öz gücünə olan inamı ortaya çıxdı, xalq özünə inandı və özünü, inamını təsdiqlədi. Bununla daxildə milli birliyin güclənməsi üçün də işlər görülmüş oldu".

**İ.Qəmbər isə bildirib ki, həmin dövrdə fəaliyyət göstərən insanların hər birini qiymətləndirmək lazımdır. Azadlıq hərəkatının əsas liderlərindən sayılan Nemət Pənahlı haqqında danışan İ.Qəmbərin sözlərinə görə, həmin dövrdə Nemət Pənahlının mövqeyi belə idi:** "Xalq nə qədər dayana bilirsə, o qədər dayanacağıq". O, həmçinin qeyd edib ki, o dövrdəki hadisələrdə DTK-nın heç bir rolu yox idi.

Daha sonra suallar cavablandırılıb. İ.Musa qeyd edib ki, mübariz xalq indi sanki fərqlidir və hadisələrə fərqli mövqe sərgiləyir.

Həmçinin tarixçi deyib ki, 1990-cı ilin yanvarına, qanlı hadisələrə qədər Azərbaycandakı hərəkatçılar SSRİ-dən ayrılma təklifini ortaya qoymamışdılar. Ancaq bu fikirlər İsgəndər Həmidovun narazılığına və etirazına səbəb oldu. İ.Qəmbər isə qeyd edib ki, o vaxt hər birimiz ürəyimizdə müstəqil Azərbaycan hərəkatını yaşadırdıq. Amma siyasi qərarlara gələndə, müstəqillik arzusu ilk vaxtlar sənədlərdə əksini tapmamışdı.

İsgəndər Həmidov isə çıxışında bildirib ki, milli azadlıq fikirləri həmişə Azərbaycanda çağlanıb. Ancaq bu fikirlərin pik nöqtəsi 1988-ci ilin 17 noyabrında yaşanıb. Onun sözlərinə görə, Meydan hərəkatı heç kəs tərəfindən idarə olunmurdu: "Xalq tərəfindən idarə olunurdu".

**Müsavat Partiyasının Qadınlar Təşkilatının rəhbəri Ellada Məmmədli** isə bildirib ki, əksəriyyətin təfəkküründə millilik anlayışı məhz Meydan hərəkatı dövründə yaranıb və güclənib.

İ.Qəmbər isə bildirib ki, Azərbaycanda milli istiqlal uğrunda mübarizə heç zaman dayanmayıb.

**Qeyd edək ki, Milli Dirçəliş günü 17 noyabr 1992-ci ildə elan olunub.** Bu tarix 1988-ci ilin noyabr-dekabr aylarında paytaxt Bakıda olan hadisələrlə bağlıdır. Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı antiazərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapıb. 17 noyabrda isə Bakının əsas meydanı sayılan Azadlıq meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başlayıb. Mitinqlər 17 noyabrdan 5 dekabra qədər davam edib. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və respublikanın istiqlaliyyət qazanmasında əsas amil sayılır.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

# Siyasi məhbus problemi - müxalifətə itki, iqtidara qazanc

**"Azərbaycan hakimiyyəti illərdir siyasi məhbus məsələsini, siyasi rəqiblərin təqib olunması problemini Qərb institutları üçün prioritetə çevirə bilib. Bu səbəbdən demokratik prosesin digər vacib amilləri arxa plana keçib". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri politoloq Ərəstun Oruclu deyib. Politoloqun fikrincə, demokratiya məsələsinin sırf siyasi məhbus məsələsinə köklənməsi iqtidarın maraqların xidmət edir: "Məsələ burasındadır ki, Avropa strukturları digər demokratik proseslər, xüsusən seçki qanunvericiliyi ilə bağlı digər ölkələrdə də eyni siyasəti yürüdür.**



**Ərəstun Oruclu:** "Siyasi məhbus probleminin qabardılması demokratikləşmənin digər elementlərini arxa planda qoyur"



**Hikmət Hacızadə:** "İqtidar siyasi məhbus məsələsini neftlə kompensasiya eləməyə çalışır"



**İqbal Ağazadə:** "Siyasi məhbus məsələsini daim gündəmə gətirməklə müxalifət iqtidara yardım edir"

Azərbaycan kimi Ermənistanda, Belorusda da danışıqların prioriteti siyasi məhbusların azad edilməsi məsələsidir. Qərb yalnız Rusiyada seçki məsələsini insan haqları məsələsindən daha çox qabardır. Ancaq bu o demək deyil ki, Avropa strukturları Azərbaycan iqtidarının marağında olmayan digər məsələlərə toxunmaq istəmir. Yaxın günlərdə Avropa Şurasının Venesiya Komissiyası təmsilçilərinin Azərbaycana səfəri nəzərdə tutulsa da son anda səfər təxirə salındı. Məsələ gündəmdədir. Bizdə olan bilgiyə görə, Azərbaycanda keçiriləcək 2015-ci il parlament seçkilərini Qərbin demokratiya institutları çox ciddi şəkildə gündəmə gətirəcək. Çox ciddi müzakirələr olacağı gözlənilir. Nəticələr haqqında isə hələlik bir söz söyləmək çətindir. Bu, bir çox amillərdən asılıdır. Bu sırada postsovet məkanında yaranan geosiyasi durum əsas yerlərdən birini tutur".

**Politoloq Hikmət Hacızadə** düşünür ki, Qərbin insan haqları məsələsində bu cür israrlı tələbləri Azərbaycanın üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirməsi ilə bağlıdır: "Azərbaycan Qərblə əməkdaşlıq anlaşmaları üzrə öhdəliklərini yerinə yetirir. Məsələn, Qərblə enerji layihələrinin icrasında problem yoxdur, Azərbaycanın Avropanın enerji təhlükəsizliyi prosesində iştirakı Qərbi qane edir. Əsas problem insan haqları ilə bağlıdır. Azərbaycan insan haqları, demokratik azadlıqlarla bağlı üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Ona görə də Qərb davamlı olaraq bu məqamı vurğulayır. Hələlik iqtidar bu tələbləri qulaqardına vurur, insan haqları problemlərini neftlə kompensasiya eləməyə çalışır. Əlbəttə ki, Azərbaycan iqtidarı bu durumu bilərəkdən, qəsdən yaradır. Rəsmi Bakı çox yanlış olaraq düşünür ki, dünyada insan haqları heç kimi maraqlandırmır, Avropa strukturları, ümumilikdə Qərb bu problemin yoluna qoyulmasında heç zaman israr etməyəcək. Azərbaycan məmurları düşünür ki, Qərb istədiyi qədər danışa bilər, onsuz da heç nə edə bilməyəcək. Əslində bu, qətiyyən belə deyil. Ola bilər bu gün Qərbin əlində Azərbaycana təsir imkanları yoxdur. Ancaq sabah ola bilər. Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri hansı formada yerinə yetirməsi mütləq masaya yatırılacaq, müzakirə ediləcək. Odur ki, iqtidar gələcəkdə öz durumunu çətinləşdirməmək üçün bu məsələni indidən yoluna qoymalıdır. Azərbaycan bundan yalnız qazanar".

**"Ümid" Partiyasının sədri, deputat İqbal Ağazadə** isə düşünür ki, Qərb-Azərbaycan danışıqlarının siyasi məhbus məsələsinə köklənməsində iqtidarla müxalifət "suç ortağıdır": "Azərbaycan iqtidarı bu durumu bilərəkdən yaradır. Çünki bu, rəsmi Bakıya ən sərf eləyən variantdır. Əgər ortada siyasi məhbus məsələsi olmasa, seçki məsələsi olacaq. Bu, birmənalıdır. Seçki məsələsi demokratikləşmədə ən vacib elementlərdən biridir. Ona görə də Azərbaycan iqtidarı danışıqlar müstəvisinə hər zaman insan haqları problemini çıxarır. Çox təəssüf, müxalifət bu məsələdə Azərbaycan iqtidarına çox yardım edir. Mən bu məsələni zaman-zaman gündəmə gətirərəm. 10 il, 15 il öncə Azərbaycanda siyasi məhbusların sayı indikindən qat-qat çox idi. Üstəlik daha üzdə olan, nüfuzlu insanlar həbsdə idi. İndiki kimi vətəndaş cəmiyyəti institutlarının liderləri deyil, siyasi liderlər həbsdə idi. Onların, bizim azadlığa çıxmağımız demokratikləşmə prosesinə nələrsə verdimi? Demokratiya bizim azad edilməyimizlə irəlilədimi? Bu problem var, heç kim bunu inkar etmir, ancaq mən bunun həddən artıq şişirdilməsinə qarşıyam. Prosesləri yeni müstəviyə daşımaq lazımdır. Heç şübhəsiz qanunsuz həbs edilən insanların azadlığa çıxmasına çalışmaq, onların haqlarını müdafiə etmək vacibdir. Bu bizim gündəlik işimiz olmalıdır. Ancaq bütövlükdə siyasi mübarizəni, demokratikləşmə prosesini siyasi məhbus məsələsi üzərində kökləmək hakimiyyətin xeyrinədir. Azərbaycan Avropa Şurasına daxil olanda yanlış xatırlamıramsa, ölkədə 1140 siyasi məhbus vardı. Bu gün siyasi məhbusların sayı 10 dəfə azalıb. İnsan haqlarını müdafiə qurumlarının siyahılarında heç 100 nəfərin adı yoxdur. Ancaq demokratikləşmə prosesi sürətlənibmi? Müxalifət bunu nəzərə alaraq düzgün strategiya və taktika seçməyi bacarmalıdır. Təəssüf ki, Azərbaycan müxalifəti bunu bacarmır, oyunu eyni müstəvidə davam etdirir".

**İqbal Ağazadənin fikrincə, hələlik Qərb-Azərbaycan münasibətlərində diktə edən rolunda rəsmi Bakıdır və müxalifət taktiki dəyişikliklər etməsə proses bu cür də davam edəcək:**

"Hakimiyyət artıq məhkəməsi başa çatan insanları azadlığa buraxacaq və buna görə təşəkkür alacaq. Ardınca yeni həbs dalğası gələcək. Yenidən bu insanların azad edilməsinə illər sərf olunacaq. İllərdir Azərbaycan müxalifəti "bizə siyasi mübarizə meydanı vermirlər, bizi həbs edirlər" şüarların səsləndirir. Yaxın günlərdə bələdiyyə seçkisi keçiriləcək. Müxalifət bu proseslə ümumiyyətlə maraqlanmır. Deyilə bilər ki, bələdiyyələrin statusu yetərincə deyil, seçki ədalətli keçirilmir. Ancaq bunun fundamental səbəbi var - Azərbaycan seçicisi bu prosesdə iştirak etmir, tərəf olmur. Vətəndaşın seçkidə tərəf olmaması vacib element kimi iqtidarın işinə yarayır. Müxalifət də buna şərait yaradır. Yaxşı, tutalım, bələdiyyələrin statusu yoxdur, sual oluna bilər - bəs o zaman parlament seçkisinə niyə gedilir? Axı müxalifət parlamentin də səlahiyyətinin olmadığını deyir. Heç şübhəsiz, 2015-ci ildə müxalifət hər dairə üzrə dava açacaq. Demək, siyasi qurumların proseslərin hansı istiqamətdə davam edəcəyi ilə bağlı aydın təsəvvürü yoxdur. Bu aydın təsəvvürün və strategiyanın olmaması ardıcıl yanlışlıqlara gətirib çıxarır".

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014



# Gələn il bu vaxt...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Dünya dönür, dəyişir... Bir sıra ölkələr bu dəyişikliyin önündə gedir, bizim sayaq “analoqu olmayanlar” isə bir istəklə yaşayır - hər şey olduğu kimi qalsın, heç nə dəyişməsin...**

Böyük tarixi olayların içindən keçirik. Ən azından noyabr ayının 16-da Avstraliyanın Bricbern şəhərində “G-20" sammitində yaşananlar bütün bəşəriyyətin həyəcan və səksəkə ilə dolu bir mərhələyə qədəm qoyduğundan xəbər verirdi. Bunun özək səbəbi təkcə Rusiyanın Ukraynaya açıq təcavüzü deyil, həm də hamını, hər kəsi gözləyən təhlükədən dolayı yaranan narahatlıq idi...

Tale elə gətirib ki, biz gözlənilən dramatik olaylara daha yaxın məsafədə yerləşirik. Məhz bu sammitdə Rusiya prezidentinə ünvanlanan tənqidlərdən sonra hər şeyin sakitliklə sonuclanacağını söyləmək sadəlövhlük olar. Əslində biz bir toplum kimi şimal qonşumuz olan ölkədə baş verənləri öz tale süzgəcimizdən keçiririk. Bir ev, bir ailə varmı ki, Rusiyada yaşananlar ona təsir etməsin? İndi zəngin Azərbaycanın nə qədər övladının yaşamaq üçün Rusiyaya sığındığını ayırd etməyə də elə bir ciddi ehtiyac yoxdur. Yetər ki, istənilən elə, obaya, dostların, qohumların, tanışların sırasına ötəri bir nəzər salasan, gedənlərin və qalanların qədərini özün müəyyən edəcəksən... Milli təəssübkeşlik hissimiz varsa, üstümüzə yeriyən fəlakətin miqyasını da təxmin edə bilərik...

Rusiya Ukraynanın cənub-şərqinə müdaxiləyə etnik rusların müdafiəsi bəhanəsi ilə haqq qazandırır. Elə o regionda yaşayan ruslar qədər də azərbaycanlılar ucsuz-bucaqsız Rusiyaya səpələniblər. Amma biz onlara arxa-dayaq olacaq qədər nə gücə, nə də imkana sahib deyilik... Bunu bilirik, elə o qədər də suallarla üz-üzə qalırıq: onların taleyi necə olacaq?

Taleyin ironiyasıdır bu da - irili-xırdalı hansı məmuru didirsən ağızdolusu millətdən, qeyrətdən danışır. Hər il onların dilindən dönə-dönə təkrarlanan bir vədi eşidirik: bu il torpaqlarımız işğaldan azad olacaq. O vədi verən, millətdən-qeyrətdən dəm vuran məmur daha böyük ehtiras və doymaq bilməyən nəfslə bu ölkənin sərvətlərini acgözlüklə talayır... Əgər Azərbaycanda korrupsiya bu həddə qərarlaşmasa idi, bu məmləkət 9 milyonluq toplum üçün darlıq edərdimi?

Bizim öz halal qazancı ilə öyünə biləcək milyarderimiz yoxdur, amma haramla dünyanı heyrətdə qoyanlarımız yetərincədir...

Nədənsə bir məqam diqqətdən yayınır: Azərbaycandakı siyasi hakimiyyətin öyündüyü sabitlik əslində az qala müstəqilliyimizlə yaşıd olan qeyri-müəyyənlikdir... Bu illər ərzində, etiraf edildiyi kimi dəqiq strateji yön, istiqamət seçilməyib... Biz dünyada və çevrəmizdə baş verənlərin arxasınca sürünmüşük. Elə bu səbəbdən səksəkə içində yaşayırıq. Bəzən isə bu isterik qorxu həddində qərarlaşır - hakimiyyət illər boyu aldatdığı topluma bel bağlamır. Neçə dəfə məhdud bir dairə özü üçün prezident, parlament seçir, qanunlara dəyişiklik edir. Bütün bunlardan sonra isə siyasi dalan yaranıb - korrupsiyanın ən ağlasığmaz həddə qərarlaşdığı ölkədə normal seçki keçirmək az qala fəlakət kimi anlaşılır. Nədənsə bunu dərhal Azərbaycanda sabitliyi pozmaq istəyənlərin qəsdi kimi qiymətləndirirlər.

Axı bunu anlamaq o qədərmi çətindir ki, Azərbaycanda siyasi gündəmi dəyişən müxalifət yoxdur. O, hətta ən güclü vaxtında belə bu rejimin planlarını poza bilmədi. İndi isə olduqca zəif olduğu bir vaxtda yalnız adını qorumaq, mövcud olduğunu xatırlatmaq üçün mübarizə aparır.

Bütün hallarda Azərbaycandakı siyasi rejimin bu təhlükəli məqamda normal parlament formalaşdırmaq şansı var. Bəlkə də yaxın zamanda ölkəni böyük fəlakətdən xilas etməyin yeganə çıxış yoludur. Ən azından legitim parlament olmasa bu talanı cilovlamaq mümkün olmayacaq. Artıq hamı hiss edir ki, hətta istəsə belə prezident də bunu cilovlamaq gücündə deyil. Korrupsiya cindən, şeytandan, istənilən təcavüzdən, bizə yönələn bütün xəbisliklərdən də yüksəkdə dayanır...

**Əslində sabitliyi poza biləcək ən böyük təhlükə də korrupsiyadır. Xilas yolu var: heç olmasa, bir-iki məmurun qazanc mənbəyinə dönən bədnam seçkilərə son qoyulmalıdır. Xalqın sayıb-seçdiyi adamlar bizə yönələn təhlükələrə sinə gərməlidirlər. Bir il sonra vəziyyət dəyişməsə, sonuncu fürsəti də əldən verəcəyik...**

# Bələdiyyə seçkilərinə qatılan müxalifət partiyalarını peşman etdilər

## Yerli icra hakimiyyətləri namizədlərə təzyiq edir

**Dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Artıq namizədlərin qeydə alınması prosesinin bitməsinə 1 həftədən az müddət vaxt qalıb. Ölkəmizin demokratik düşərgəsi bu seçkilərə ciddi yanaşmır. Bəzi partiyaları çıxmaqla, əksər aparıcı siyasi qüvvələr prosesi kənardan müşahidə edir.**

İddiaçıların qeydiyyat proseslərinə süni əngəllər yaradılması ilə bağlı xəbərlər yayılıb. Müsavat Partiyası seçkilərdə iştirakla bağlı üzvlərinə sərbəstlik verib. Amma bununla belə, partiyanın namizədlərinin qeydə alınmasına maneələr yaradılır. Partiya başqanının müavini Elman Fəttah əsasən, rayon təşkilatlarında bu halların yaşandığını bildirdi: “Biz müntəzəm olaraq rayon təşkilatları ilə əlaqə saxlayırıq. Artıq bizə məlumatlar çatır ki, bir sıra rayon təşkilatlarında namizədlərin qeydə alınmasında ciddi problem yaradılır. Əsasən Mingəçevir, Zaqatala və Şəki təşkilatlarından bizə təəssüfləndirici xəbərlər gəlir. Artıq rayonlarda zona müşavirələrimizi başa çatdırmaq üzrəyik. Noyabrın 23-də ümumrespublika müşavirəsi keçiriləcək. Orada bu məsələ ciddi müzakirə olunacaq. Bildiyimiz kimi, həmin vaxt namizədlərin qeydə alınması prosesi başa çatır. Bələdiyyə seçkiləri vətəndaşların proseslərə aktiv qoşulmasında mühüm rol oynaya bilər. Hakimiyyətin belə əngəllər yaratmaqda məqsədi vətəndaşları bu proseslərdən kənarda qoymaqdır. Bütün bunlar bir daha ölkədə sağlam seçki mühitinin olmamasından xəbər verir”.



**Ümid Partiyasının sədri İqbal Ağazadə** də qeydiyyat prosesi ilə bağlı narazılığını dilə gətirdi: “Namizədlərin irəli sürülməsində ciddi problemlər yaradılır. Biz onların siyahısını MSK-ya vermişdik. Təəssüf ki, MSK bu siyahıları icra hakimiyyətlərinə verib. Bu qurum isə namizədlərimizə iddialarını geri götürmələri ilə bağlı ciddi basqılar edirlər. 4 mindən artıq namizəd müəyyən etmişdik. Hələ qeydiyyatdan neçə nəfərin keçməsi ilə bağlı dəqiq məlumatımız yoxdur. Rayonlar var ki, 30-40 nəfər iddiasını irəli sürüb. Cəmi 4 nəfərə imza vərəqələri verilib. Hətta 61 nəfərin namizədliyi verilən yerlər var ki, 5 nəfərə imza vərəqələri veriblər. Onlara ciddi təzyiqlər edirlər. Yəni durum olduqca acınacaqlıdır. Bunlar hakimiyyətin ölkədə seçki mühitini tamamilə boğmaq istəyindən irəli gəlir. Seçki aktiv vətəndaş deməkdir. Hakimiyyət vətəndaşların proseslərə qatılmamasına çalışır”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** artıq imza vərəqələrinin toplandığını və namizədlərin qeydə alınması mərhələsində olduqlarını qeyd etdi: “Artıq imza vərəqələrini toplamışıq. Qeydə alınma mərhələsindəyik. Namizədliyim artıq Nərimanov ərazisindən qeydə alınıb. Amma yerlərdə xoşagəlməyən situasiyalar yaşanır. Namizədlərimiz ciddi problemlər yaşayırlar. Bir faktı qeyd edim ki, 67 saylı Cəlilabad seçki dairəsindən təşkilatımızın sədrinin namizədliyinə DSK-nın sədri açıq şəkildə mane olur. Bildirir ki, icra hakimiyyəti ilə razılaş və sonra namizədliyini irəli sür. Bu, özbaşınalıqdır. Bununla bağlı MSK-a müraciət edəcəyik. Bütün bunlar göstərir ki, rayon icra başçılarına bu məsələyə birbaşa müdaxilə etməyə şərait yaradılıb. Biz sona qədər qanunvericiliyə uyğun hərəkət edəcəyik. Biz bu seçkilərdə nüfuzlu insanların namizədliyini irəli sürmüşük. Maneələr olmasa, qələbə qazanmaq şanslarımızın yüksək olduğu qənaətindəyəm. Bütün bu əngəllər bələdiyyələrə tam nəzarətin hakimiyyətin əlində olmasına hesablanmış addımlardır. Bunların qarşısı dərhal alınmalıdır”.

**VHP İcra Aparatının rəhbəri Samir Əsədli** digər partiyalara yaradılan problemlərin onlara da şamil olduğunu söylədi: “Biz VHP olaraq bu seçkilərdə aktiv şəkildə iştirak edirik. Dairələr üzrə səlahiyyətli nümayəndələrimizi müəyyənləşdirmişik. Xeyli sayda namizəd irəli sürülüb. İmza vərəqələrini alanlar da var, namizədliyi qeydə alınanlar da. Bir sıra rayonlarda iddiaçılara qarşı ciddi təzyiqlər var. Xüsusilə, icra hakimiyyətinin nümayəndələri seçki prosesinə mane olur, namizədlərə təzyiqlər edirlər. İnsanları qorxutmağa çalışırlar. Müxalifət partiyalarının namizədlərinin olmaması üçün əllərindən gələni edirlər”.

❑ **Cavanşir ABBASLI**

# İcra başçısının təpələrin arxasında gizlətdiyi zibilləri

## Xaləddin İsgəndərov xalqı da, prezidenti də aldatmaqla məşğuldur

**1 iyul 2014-cü ildən etibarən Binəqədi rayonu ərazisində mərhələli şəkildə “Təmiz Binəqədi” layihəsinin həyata keçirilməsinə başlanılıb. Layihənin həyata keçirilməsi ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə tədbirlər planı təsdiq edilib və tədbirlər planının icrasını təmin etmək məqsədilə müvafiq komissiya yaradılıb.**

Bundan sonra Binəqədi rayonunda müəyyən işlər görülüb. Amma görülən işlər problemləri kökdən həll etməyib. Çünki məqsəd rayonun problemlərini həll etmək deyil, onların üzərini örtməkdir.

Belə ki, yolun kənarlarında üstü yaşıllıqla örtülmüş təpələrin arxasındakı natəmizlik, “Təmiz Binəqədi”yə heç yaraşmır.

Çünki güllərlə bəzədilən təpələrin, villaları görünməz edən divarların arxasında bir görüntü var. Kimlərinsə gizlətməyə çalışdığı, amma başaramadığı bir görüntü...










Öndən baxdığın zaman görünən gözəlliyin arxasında, zibilliklər aşıb-daşır. Təmizləyən yox, nəzarət edən yox...

Küçələr taxtalarla hasarlanıb. Sanki orada yaşayanlar, dünyadan təcrid edilib. Yaxşı ki, bir qapı var. Oradan saxta yaşıllığa boylanmaq olur.

Hər şeyi palaz altında gizlətmək, bizim qədim adətimizdir deyəsən. Çünki çirkli görüntüləri, problemli məsələləri həll etməkdənsə, onların üzərini örtmək ölkəmizin hər yerində var. Binəqədidə də eyni durumdur. Təpələrin arxasından zibilliklər boylanır.

“Bir az da belə getsə ikinci təpə yarancaq. Amma bu dəfə yaşıllıqdan yox, zibillikdən”

Sakinlər də eyni sözləri deyirlər: “Yalandan hər tərəfə yaşıl otlar səriblər. Guya hər şey ela dır. Bu boyda küçədə bir dənə də zibil qutusu yoxdur. Kimin nə zibili varsa atır boş həyətlərə. Bir az da belə getsə ikinci təpə yarancaq. Amma bu dəfə yaşıllıqdan yox, zibillikdən”.

“Bura bir az göz qabağıdır deyə hələ yaxşı durumdadır. Siz gedin kənd Binəqədiyə. 1-ci mədən adlanan əraziyə. Görün oralar nə gündədir? Yollar bərbad halda, marşrutlarda basa-bas. Evdən çıxıb, şəhərə çatana kimi, ürəkbulanma əl çəkmir. Çünki yollar bərbaddır. Buna görə də, avtobus da silkələnə-silkənə gedir. Sərnişinlər də həddindən artıq çoxdur. Yalandan park düzəltməklə deyil, yollarımızı düzəltsinlər” - bu sözləri çəkiliş apardığımız zaman bizə yaxınlaşan, rayon sakini Şamil Vüqarov dedi.

**Binəqədi rayonu ilə bağlı bir neçə dəfə yazılar dərc etmişik. Hər birində də, yol və kommunal problemləri işıqlandırmışıq. Görünən budur ki, icra başçısı Xaləddin İsgəndərov problemləri həll etmək əvəzinə gizlətməyə çalışır. Lakin bu, onda heç də yaxşı alınmır. Deməli, bundan belə problemləri gizlətməkdənsə, onları həll etmək daha məqsədə uyğundur. Yetər, xalqı da, cənab prezidenti də aldatdığı.**

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# Ərdoğanın Amerikanın kəşfi ilə bağlı dedikləri ortalığı qarışdırdı

## Tarixçilərdən ona dəstək var, mənbələrdə şübhəli məqamlar da üzə çıxdı



**"Amerikanı Xristofor Kolumb deyil, müsəlmanlar kəşf edib". Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu sözləri hələ də dünya mediasının gündəmindədir. Onun bildirdiyinə görə, islamın Latın Amerikasına gəlişi 12-ci əsrə təsadüf edir: "Amerika qitəsinin isə 1492-ci ildə Kolumb tərəfindən kəşf edildiyi iddia edilir. Lakin Kolumbdan 314 il əvvəl, yəni 1178-ci ildə Amerika sahillərinə ilk dəfə olaraq müsəlman dənizçilər gəlib. Xristofor Kolumbun memuarlarında Kuba dağlarının başında bir məscidin olması göstərilib. Bir sözlə, Kolumbdan daha əvvəl bu qitədə İslam dini mövcud olub və geniş yayılıb".**

Maraqlıdır ki, çoxlarına absurd görünən bu iddia artıq bəzi elm adamları tərəfindən təsdiq olunub. Dünya İslam elmi tarixinin tədqiqatçısı professor Fuad Sezgin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Amerika ilə bağlı dediyi sözləri təsdiqləyib.

**O da bildirib ki, Amerika qitəsini Xristofer Kolumbdan öncə müsəlman dənizçilər üzə çıxarıblar:** "Bunu yazmışam, lakin bu günə qədər millətimdən heç kəs mənə dəstək verməyib. Buna təəssüf edirəm. Mən bu sözlərlə sizi hərəkətə keçirmək istəyirəm. Allah sizə bir həyat verib, lakin bunu yaxşı istifadə etmirsiniz. Sizi bunu yaxşı istifadə etməyə çağırıram. Kitabda yazılan hər şey doğrudur. Gələcək zamanlarda bunları müdafiə etməyə özünüzü hazırlayın".

**Amma tarixi mənbələrdə sözügedən məsələ tamam fərqli şəkildə əks edilib.** Mənbələrə görə, XV əsrin sonunda Amerika kəşf olunmaqla dünya xəritəsində öz əksini tapıb. Bu mərhələ Amerikanın əslində kimlər tərəfindən aşkar olunmasının mübahisəli dövrüdür. Əslində həllini tapmamış bu məsələ hələ də qaranlıq qalmaqdadır. Amerikanın skandinaviyalılar, ispanlar, portuqallar, irlandlar, italyanlar, yaponlar tərəfindən aşkar olunması haqqında müxtəlif versiyalar vardır. Yaponlar Ekvador sahillərində qədim yapon keramikasının tapılmasına əsaslanaraq materikin kəşfinə iddialıdırlar. Əgər deyilənlər doğru olsa belə, bu kəşflər kiçik əraziləri əhatə etdiyindən və dəqiqləşdirilməmiş məlumatlar olduğundan coğrafiya tarixində materikin kəşf olunması X.Kolumbun adı ilə bağlanılır.

**Amerikanın kəşf olunmasının X.Kolumbun adı ilə bağlanması, tədris müəssisələrində ona üstünlük verərək gənclərə aşılanması düzgündürmü?** Hər halda, Amerikanın 985-ci ildə normann dənizçisi Byarnı tərəfindən kəşf olunması haqqında dəqiqləşdirilmiş məlumatlar var. Byarnı 985-ci ildə Qrenlandiyaya üzərkən duman və güvvətli küləklərin təsirindən götürdüyü istiqamətdən kənara çıxaraq, ilk dəfə Nyufaundlend sahillərinə çatır. O, Amerikanın kəşfində hətta Leyf Eriksonu 18 il qabaqlamışdır.

**Amerikanın kəşfi xristofor Kolumbun adı ilə bağlı olsa da, 1440-cı ildə tərtib olunmuş xəritənin aşkar edilməsi, qədim vikinqlərdən olan Leyf Eriksonun 500 il əvvəl burada olması haqda məlumatın əldə olunmasına səbəb olur.** O, Qrenlandiyanın sahillərindən üzməklə Vinland (üzümlüklər ölkəsi), Nyufaundland yarımadasını kəşf etmişdir (1003-cü ildə). Amerika konqresi bununla əlaqədar olaraq hər il 9 oktyabr Yeni Dünyanı kəşf edən Leyf Erikson gününü bayram günü kimi qanuniləşdirmişdir.

Amerikalı alimlər aparılan son arxeoloji tədqiqatlar işığında tarixi dəyişdirə biləcək bir kəşfə imza atıblar

**Elm adamları Amerikanın şərq sahillərindəki altı məntəqədə onlarla daş əmək alətləri tapdıqlarını açıqlayıblar.** Alətlər üzərində aparılan araşdırmalar bu alətlərin yaşının 19 minlə 26 min il arasında olduğunu göstərib. Ən maraqlısı isə onların Avropadakı alətlərlə demək olar ki, tamamilə eyni olmasıdır.

"The Independent" qəzetinin verdiyi xəbərə görə, avropalı ovçuların yerli amerikalılardan 10 min, Kolumbdan isə tam 20 min il əvvəl Amerika qitəsini kəşf edərək burada yaşadıqları ortaya çıxıb. Eyni zamanda, qəzet bu alətlərin kəşfinin bir neçə onilliklər ərzindəki arxeoloji kəşflər arasında ən önəmlilərdən biri olduğu bildirir.

Qeyd edək ki, insan əli ilə hazırlanan əşyalar bundan əvvəl də tapılmışdı. Lakin onların yaşı cəmi 15 min il əvvələ gedib çıxırdı. İndi kəşf edilən alətlər isə həmin dövrdə Avropada istifadə olunan alətlərlə demək olar ki, tamamilə eynidir.

**Tədqiqatçılar Qərbi Avropadan yola çıxan daş dövrü adamlarının Atlantik okeanındakı buzların üzəri ilə haradasa 2 500 kilometrlik məsafə qət edərək Şimali Amerikaya çatdıqları iddiasını irəli sürürlər.** Onların fikrincə, buz dövrünün ən pik çağında Şimali Atlantikanın böyük hissəsi demək olar ki, ilin bütün dövrlərində buz altında qalırdı. Buz təbəqəsinin içərisində isə ovçuların zəngin qida mənbələri aşkar etdikləri bildirilir. Ancaq bu son kəşf edilənə kimi bu iddianı dəstəkləyəcək sübutların sayı çox az idi.İndi isə ABŞ-ın Ekseter Universitetinin professorları Dennis Standord və Bruc Bredli bu ay çap olunacaq kitablarında bu nəzəriyyəni və dəlillərini əsaslandıracaqlar. Bildirilir ki, son kəşfin ardından tədqiqatçılar Tennesi, Merilend, hətta Texas ştatlarında da bir çox kəşflərin olacağına ümid edirlər.

❑ **Sevinc TELMANQIZI**

## Həbsxanada aclıq edən keçmiş "OMON"-çunun vəziyyəti ağırlaşdı

### Arif Kazımov son 2 gündə 3 dəfə huşunu itirib



**Ömürlük həbs cəzasına məhkum olunmuş, hazırda Qobustan Qapalı həbsxanasında cəza çəkən siyasi məhbus Arif Kazımov artıq 10 günə yaxındır ki, aclıq aksiyası keçirir. Asiyanın səbəbi isə valideynləri ilə qanunla nəzərdə tutulmuş ilə görüşün verilməməsidir.**

Bu barədə musavat.com-a məhbusun anası Tükəzban Kazımova məlumat verib. Onu sözlərinə görə rəis müavini polkovnik-leytenant Aftandil Ağayev rəisin işdə olmadığından istifadə edərək köhnə ədavətini aparmaqda davam edib. "Oğlum həmişə deyir ki, köhnə rəisin vaxtında biz bu adama pul vermədiyimiz üçün bizə münasibəti normal deyil idi. İndi də həmin ədavətini aparır. İndi də oğlum bunlara etiraz olaraq aclıq aksiyası keçirir. Onsuz da səhhətində ciddi problemlər var. İndi isə daha da ağırlaşıb. Heç kim gəlib uşağımla maraqlanmır. Həkim tələb edir, vermirlər. Mən bilmirəm kimə müraciət etməliyəm? Axı, burada insan talehindən söhbət gedir. Ədliyyə Nazirliyinin Penitensiar Xidməti də Arif Kazımovla bağlı heç bir açıqlama vermir" .

Məlumat üçün bildirək ki, Arif Kazımov Avropa Şurasının tanıdığı ilk siyasi məhbuslarındandır.

Hüquq müdafiəçiləri, Novella Cəfəroğlu, Səidə Qocamanlı, hazırda həbsdə olan Leyla Yunus dəfələrlə Arif Kazımov və Səfa Poladovun həbs müddətini nəzərə alaraq, aidiyyatı orqanlara müraciət edib, onların ömürlük azadlıqdan məhrum edilməsi ilə bağlı cəzanın 20 il həbs cəzası ilə əvəz olunmasını istəyiblər. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov prezidentə ünvanladığı müraciətdə digər bir neçə məhbusla bərabər A.Kazımov və S.Poladovun da azadlığa buraxılmasını xahiş edib. Adları çəkilən şəxslərlə bağlı Avropa Şurasının tövsiyəsi ilə 2004-cü ildə təkrar məhkəmə prosesi keçirilib, lakin heç bir nəticə əldə edilməyib. Bu gün Avropa Şurasının tövsiyəsindən 10 il keçməsinə baxmayaraq, həmin şəxslər hələ də, azadlığa buraxılmayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ölkədəki xarici neft şirkətlərinin ayrı-seçkiliyi...

## Mirvari Qəhrəmanlı: "Xarici mütəxəssislər baha qiymətə gətirilir, yerlilər də iş tapa bilməyib ölkəni tərk edirlər"



**Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətləri Əmək Məcəlləsinin tələblərini yerinə yetirmir və kobud şəkildə pozur. Yerli və savadlı kadrlar işsiz olduğu halda, vakant yerlərə xaricdən işçi gətirilir. Həmin mütəxəssislər isə yerlilərə nisbətdə dəfələrlə çox əmək haqqı alırlar, həmçinin vergidən yayınırlar.**

**Bu barədə Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı** bildirib. O, qeyd edib ki, ölkənin rəsmi şəxsləri tez-tez neft sahəsində mütəxəssis qıtlığından danışsalar da, reallıqda əksidir: "Ancaq xaricdən baha maaşla mütəxəssis gətirilir. Yerli mütəxəssislər də iş tapa bilməyib ölkəni tərk edirlər. Əmək miqrasiyası haqqında qanunda göstərilir ki, ehtiyac olduğu halda, xaricdən mütəxəssis gətirilə bilər. ancaq bizdə ehtiyac olmadığı halda gətirilir və qanun pozuntusuna diqqət yetirilmir. Miqrasiya Xidməti xarici mütəxəssislərin ölkəyə gəlişinin qabağını almır. Onlar üç aydan bir gedib yenidən Azərbaycana qayıdırlar və buna görə vergi də vermirlər, icazə də almaq lazım olmur. Ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərin fəaliyyətlərinə dövlət nəzarəti,- vergi, miqrasiya orqanları və əmək müfəttişliyinin nəzarəti niyə zəifdir?"

**M.Qəhrəmanlı ölkəmizdən xaricə "beyin axını"nın artdığını narahatlıqla vurğulayıb. Onun sözlərinə görə, ölkədə fəaliyyət göstərən bir çox xarici şirkətlər, xüsusilə neft şirkətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsinin və digər qanunverici sistemlərin tələblərinə məhəl qoymurlar:** "Şirkətlərdə yaranmış vakansiyalara təyinat yerli işçilərdən deyil, xarici mütəxəssislər təyin olunurlar. Belə hallara ölkəmizdə fəaliyyət göstərən əksər şirkətlərdə rast gəlmək olar. Yerli mütəxəssislər isə ölkədə işlə təmin olunmadıqları üçün öz bilik və bacarıqlarını başqa ölkələrin inkişafına yönəldirlər. Buna misal olaraq "Bahar Enerji" Əməliyyat Şirkətini göstərmək olar. Təşkilata daxil olan məlumata görə şirkət 2015-ci il yanvar ayından kütləvi ixtisarlar aparacaq. Təəssüf ki, bu ixtisarlar ancaq yerli işçilərə şamil olunacaq. Son zamanlar "Bahar Enerji"də aparılan qazma işləri müsbət nəticə vermədiyi üçün şirkətdə struktura daxil olan Qazma Şöbəsi ləğv edildi. Amma buna baxmayaraq, şirkət qazma üzrə xarici mütəxəssis işə qəbul edib. Sual olunur Azərbaycanda belə mütəxəssislər yoxdurmu?"

**M.Qəhrəmanlı həmçinin vurğulayıb ki, xaricdən dəvət olunan mütəxəssislərin bəzilərinin vergidən yayınması halları da baş verir:** "Belə ki, bəzi şirkətlərdə yüksək əmək haqqı alan xarici mütəxəssislərin ölkəmizdə ödəniləcək vergidən yayınması üçün "şərait" də yaradılır. Belə ki, onlarla əmək müqavilələri 3 ay, yəni 90 gün müddətinə bağlanır. Müəyyən müddətdən- ölkəyə çıxış-giriş etdikdən sonra onlarla yenidən həmin müddətə əmək müqaviləsi bağlanır. Bu, mütəmadi xarakter daşıyır. Əgər ciddi yoxlanış aparılsa, küllü miqdarda vergidən yayınma halları müşahidə oluna bilər. Onu da qeyd edirəm ki, ölkədə müvafiq tələblərə cavab verən yerli işçilər olduğu halda, xaricdən mütəxəssislərin cəlb olunması qəti qadağandır. Doğrudanmı ölkəmizdə mütəxəssis qıtlığı var?"

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın hərbi-siyasi rejiminə cavab verib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən Trend-ə bildiriblər ki, Ermənistanın hərbi-siyasi rejimi növbəti dəfə Azərbaycana qarşı hədə-qorxu dolu məsuliyyətsiz bəyanatlar verməkdə davam edir. Öz xalqını aldadaraq provokasiyaya çəkməklə Azərbaycana münasibətdə aqressiv siyasət yürütməsi onların hazırda regionda mövcud olan real vəziyyəti düzgün qiymətləndirməmələrinin nəticəsidir.**





# Müdafiə Nazirliyindən ermənilərə sərt mesaj

## "Azərbaycan Silahlı Qüvvələrinin işğalçılara dərhal vuracağı zərbə hədsiz dərəcədə təsirli, məhvedici olacaq..."; düşmən ölkə təşviş içərisindədir; Türkiyə Azərbaycana dəstəyini ifadə etdi; ABŞ mediası isə ermənilərə yardım göstərilməsini pislədi

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, düşmən tərəfi işğal edilmiş ərazilərdən qoşunlarının qeyd-şərtsiz və dərhal çıxarılmasının vacibliyini anlamalı, erməni gəncləri ədalətsiz müharibədən çəkindirərək əbəs yerə qırdırmamalıdır. Azərbaycan Silahlı Qüvvələri düşmənin istənilən təxribatının qarşısını almağa qadirdir və hazırdır.

**Nazirlik bəyan edir ki, düşmən tərəfi növbəti dəfə hər hansı bir hərbi əməliyyata əl atarsa, Azərbaycan Silahlı Qüvvələrinin işğalçılara dərhal vuracağı zərbə hədsiz dərəcədə təsirli, məhvedici olacaq, külli miqdarda itkilər və dağıntılarla nəticələnəcək, uzun müddət onların yaddaşlarından silinməyəcək.**

Qeyd edək ki, Ağdam səmasında erməni separatçılarına məxsus helikopterin vurulmasından sonra düşmən ölkə təşviş içərisindədir və yenə də hiyləgərcəsinə özlərinin "yazıq" obrazlarını yaratmaqla, eyni zamanda təxribatlara əl atmaqla məşğuldurlar.

Lakin onların bu hərəkətlərinə artıq dünya inanmır və belə görünür ki, yaranmış durumda tənqidlər birmənalı olaraq işğalçıların üzərinə yönəlir.

Yeri gəlmişkən, məzlum görməmlərini yaratmaqlarına rəğmən düşmənlərimiz kibercinayətlərə də əl atırlar. Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində hava məkanını pozmuş Ermənistana məxsus hərbi helikopterin vurulmasından sonra Azərbaycana qarşı kiberhücumların kəskin artımı müşahidə olunur. Bunu Trend-ə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Mərkəzinin rəhbəri Faiq Fərmanov deyib.

Onun sözlərinə görə, cəbhə xəttində yaranmış gərginlik AzNET şəbəkəsində də özünü göstərib və Azərbaycanın internet resurslarına hücumlar davam edir.

Kiberhücumlara KİV resursları, dövlət və özəl strukturların saytları məruz qalırlar ki, bu da xarici hücumlardan davamlı müdafiənin təşkili məsələsini aktuallaşdırır.

F.Fərmanov qeyd edib ki, hücumlar müxtəlif mənbələrdən həyata keçirilir: "Biz internet resurslarının sahiblərinə onların davamlı işləməsini təmin etmək üçün təhlükəsizlik sistemlərinə ciddi diqqət yetirməyi tövsiyə edirik".

Elektron Təhlükəsizlik Mərkəzi haker hücumlarına məruz qalmış resurs sahiblərinə hərtərəfli kömək etməyə hazır olduğunu bildirir. Kömək üçün 1654 "qaynar xətt"inə və reports@cert.az elektron ünvanına müraciət etmək olar.

***

Bu arada ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq noyabrın 18-də Ağdam rayonunun Mərzili kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin saytında xəbər verilib ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Saymon Tiller, Piter Svedberq və Yüksək səviyyəli planlaşdırma qrupunun rəhbəri polkovnik Markus Uidmer (İsveçrə) keçirəcəklər.

**Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Xristo Xristov, Yevgeni Şarov və Yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi Vitaliy Belokon (Rusiya) keçirəcəklər.**

Müdafiə Nazirliyi onu da bildirib ki, ermənilər noyabrın 16-da cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 72 dəfə pozublar. Xəbərdə deyilir ki, erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Noyanberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

THE DAILY CALLER

Tərtər rayonunun Çaylı, Qızıl Oba, Ağdam rayonunun Şıxlar, Şuraabad, Kəngərli, Mərzili, Yusifcanlı, Baş Qərvənd, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub. Düşmən cavab atəşi ilə susdurulub.

***

Yaranmış durum təbii ki, beynəlxalq təşkilatları narahat etməyə bilməz, çünki onlar işğalçıların öz siyasətlərindən əl çəkməyəcəyi təqdirdə, Azərbaycanın öz ərazilərini işğaldan azad etmək üçün hərəkətə keçməyə hər an hazır olduğunun fərqindədir.

**Təbii ki, vəziyyətin bu həddə gəlib çatmasında beynəlxalq aləmin də günahı var; onlar bu illər ərzində ermənilər qarşısında qəti tələb qoymadıqları, Azərbaycan torpaqlarının işğalı faktına laqeyd yanaşdıqları üçün mövcud situasiya yaranıb.**

Bununla bağlı deputat Rəbiyyət Aslanova da maraqlı açıqlama verib. "Dağlıq Qarabağ münaqişəsinə qarşı laqeydlik və biganəliyə görə məsuliyyət hissi daşınmasının vaxtı gəlib çatıb". Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova Bakıda "Dini tolerantlığın möhkəmləndirilməsi, Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransın sessiyasında çıxışı zamanı bildirib.

Komitə sədrinin fikrincə, dünyada baş verən müharibə, qarşıdurma, ziddiyyətlərin əsas səbəbi ondan ibarətdir ki, insanlar birgə varlıqları üçün birgə məsuliyyət hissi yaşamırlar. Dünyanın hər hansı bir yerində baş verən münaqişəyə laqeydlik, biganəlik nümayiş etdirilməsi onun davamlı olmasına gətirib çıxarır.

**R.Aslanova qeyd edib ki, Azərbaycan bunu öz təcrübəsində görür: "Bu gün beynəlxalq ictimaiyyətin Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinə olan biganə münasibəti bizi əsəbiləşdirir, bizdə bu qeyri-obyektivliyin nümayişinə qarşı etiraz yaradır. Bu həqiqətin dərk olunması, buna görə məsuliyyət daşınması, birgə fəaliyyət hissinin formalaşmasının vaxtı gəlib çatıb".**

***

### Türkiyə Cənubi Qafqazda münaqişənin dayandırılmasında maraqlıdır

Çıxılmaz duruma düşən Ermənistan özünə havadarlar gəzdiyi bir vaxtda Türkiyə Azərbaycana dəstəyini bir daha ifadə edib.

"Türkiyə Cənubi Qafqazda münaqişənin (Dağlıq Qarabağ münaqişəsi - red.) dayandırılması üçün fəal siyasət yürütməkdə davam edir".

"TRT Haber"in məlumatına görə, bunu qardaş Türkiyənin baş naziri Əhməd Davudoğlu Filippinə səfəri zamanı deyib. O qeyd edib ki, regionda və qonşu ölkələrdə sabitlik Türkiyə üçün prioritetdir.

**Türkiyənin hakim partiyası da Ermənistan helikopterinin vurulmasına reaksiya verib. "Türkiyənin Azərbaycana qarşı mövqeyində dəyişiklik olmayıb, bundan sonra da hər hansı bir dəyişiklik olmayacaq". Bu barədə bazar ertəsi Trend-ə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının İdarəetmə Şurasının üzvü Yasin Aktay cəbhə xəttində Ermənistan Silahlı Qüvvələrinin təxribatının Türkiyənin rəsmiləri tərəfindən kifayət qədər qiymət verilməməsini şərh edərkən deyib.**

Y.Aktay bildirib ki, Ermənistan helikopterinin Azərbaycan ərazisində vurulması Türkiyə mediasında geniş işıqlandırılmasa da, xəbərə fərqli münasibət iki dövlət arasında əlaqələrə əsla xələl gətirə bilməz.

Xatırladaq ki, Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, PA-nın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov jurnalistlərə açıqlamasında bildirib ki, şübhəsiz, Türkiyə dost, qardaş, tərəfdaş dövlətdir: "Sadəcə olaraq, əlbəttə, biz gözləyirik ki, Türkiyə tərəfi də cəbhə xəttində baş verən son hadisələrlə bağlı rəsmi mövqeyini bildirsin. Bunu gözləməyə bizim haqqımız da var".

"Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində hadisələrin necə cərəyan etməsi ilə yanaşı, problemin ozünün hələ də həll edilməməsi məsələsi də araşdırılmalıdır". Bunu isə Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistana məxsus hərbi helikopterin vurulması ilə bağlı jurnalistlərə açıqlamasında bildirib. Səfirin sözlərinə görə, son insident bir daha sübut edir ki, münaqişə mümkün qədər tez həll olunmalıdır: "Hadisələrin necə cərəyan etdiyinə və sair baxıla bilər. Amma əsas məsələ odur ki, Azərbaycan torpaqları niyə hələ də işğal altındadır? Hadisələrin necə cərəyan etməsi ilə yanaşı, problemin ozünün niyə hələ də davam etməsi məsələsi araşdırılmalıdır. Türkiyənin hər zaman Azərbaycanın yanında olacağı aşkardır".

***

**Bu arada ermənilərə daha bir zərbəni ABŞ mediası vurub.**

ABŞ-ın nüfuzlu xəbər portalında Dağlıq Qarabağdakı separatçı rejimə yardım göstərilməsi tənqid edilib. Amerika Yəhudi Komitəsinin nümayəndəsi Devid Berşteynin ABŞ-ın "The Daily Caller" onlayn xəbər portalında Birləşmiş Ştatlar tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində fəaliyyət göstərən qanunsuz separatçı rejimə yardım göstərilməsinin fəsadları və bu tipli "humanitar yardım"dan sui-istifadə mövzusunda məqaləsi dərc olunub. Trend-in məlumatına görə, məqalədə ABŞ administrasiyasının işğal edilmiş ərazilərimizdəki separatçı rejimə yardım etməsi tənqid edilərək, müqaeişənin həllində əsas mediatorlardan olan Birləşmiş Ştatların bu tipli fəaliyyətdən əl çəkməsinin zəruriliyindən söz açılır. Məqalədə Ukrayna hadisələri kontekstində ABŞ-ın birmənalı mövqe nümayiş etdirməsinə baxmayaraq, Dağlıq Qarabağ regionundakı separatçılara dəstək verməsinin anlaşılmazlıq və məyusluq doğurduğu bildirilir. Həmçinin məqalədə "Azadlığa Dəstək Aktı"na edilmiş 907 saylı düzəlişin ədalətsiz olduğu və mövcud reallıqları əks etdirmədiyi qeyd olunur. Kaliforniya qanunverici orqanı tərəfindən Dağlıq Qarabağla bağlı qəbul edilmiş qətnamə nümunə göstərilərək, ABŞ siyasətçilərinin şəxsi mənafelərini güdərək erməni lobbi qruplarından dəstək ummasının təəssüf hissi yaratdığı vurğulanır.

**Müəllif ABŞ-ın müttəfiqlərinin maraqlarına qarşı fəaliyyətinin qəbuledilməz olduğunu və bu tip ziddiyyətli xarici siyasət kursundan əl çəkməsinin və tərəfdaşlarını lazımi şəkildə dəstəkləməsinin vacib olduğunu qeyd edir.**

YENİ MÜSAVAT
N 282 (5991) 18 noyabr 2014

# Polis “Neftçi”nin bayrağını İŞİD-lə səhv saldı

## Fan-klub üzvlərinə plakat qaldırmağa imkan verilməyib; 100-ə yaxın azarkeş etiraz əlaməti olaraq stadionu tərk edib

**Noyabrın 16-da “Bakcell Arena”da keçirilən Azərbaycan-Norveç oyunundan öncə xoşagəlməz anlar yaşanıb. Belə ki, “Neftçi” fan-klubunun üzvlərinin üzərində “Forza Neftçi” sözü yazılan böyük plakatı açmalarına asayiş keşikçiləri mane olublar. Polislər buna səbəb olaraq, plakatı İŞİD bayrağına bənzədiblər.**

Bundan sonra fan-klub üzvləri ilə polislər arasında ciddi qalmaqal yaşanıb. Nəticədə 100 yaxın azarkeş buna etiraz olaraq stadionu tərk ediblər. “Qarabağsız gənclər fan- klubu” və “Qarabağ azarkeş qrupu” da dəstək nümayiş etdirərək, stadionu tərk ediblər.

“Backell arena”nın qarşısında fan-klub üzvləri “AFFA-ya istefa!” şüarını səsləndiriblər.

Oyundan sonra musavat.com-a açıqlamalarında fan-klub üzvləri bu hərəkəti ayri-seçkilik kimi qələmə verərək, polislər tərəfindən təhqir olunduqlarını bildiriblər. Onlar baş verənlərə səbəb olaraq, Bakıda keçirilən “Neftçi-Partizan” oyununda yaşanan məlum hadisələri göstəriblər. Bundan sonra klub səviyyəsində onlara qarşı təzyiqlər başladığını qeyd ediblər. Onu da bildiriblər ki, bu prosesə birbaşa AFFA rəhbərlik edir.

Qeyd edək ki, “Neftçi”- “Partizan”oyunu zamanı məğlubiyyəti həzm edə bilməyən azarkeşlər tərəfindən Tofiq Bəhramov stadionun pəncərələri sındırılıb. Oyundan iki gün sonra “Neftçi” fan-klubunun öndə olan üzvləri polis idarələrinə çağırılıb, gəlməyənlər isə zorla aparılıb. Onların 15-ə yaxın üzvü haqqında 20 sutkadan 3 aya qədər inzibati həbs cəzası kəsilib. Sonradan onların bəziləri “Neftçi” rəhbərliyi tərəfindən azad olunsa da, 6 nəfər sona qədər cəzalarını çəkiblər.

**Adının çəkilməsini istəməyən fan klub üzvü baş verənlərlə bağlı inanılmaz faktlar açıqlayıb. O, təkcə “Neftçi”nin yox, bütün fan-klubların bu cür təzyiqlər üzləşdiklərini və bunun birbaşa hüquq mühafizə orqanları tərəfindən təşkil olunduğunu bildirdi: “6 aya yaxındır ki, bu proses başlayıb. Bunun səbəbi də, günü-gündən fan- klubların üzvlərinin sayının artmasıdır. Açıq şəkildə sıralarımızın genişlənməsini istəmirlər. Məqsəd etiraz ruhu olan toplumun bir yerə yığışmamasının qarşısını almaqdır. Bu təkcə bizə qarşı deyil. Digər fan-klublara da bu cür təzyiqlər olunur”.**

**❑ Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**











## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara**, keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq borularının keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



**Elan**

**Əkbərov Orxan Mirzə oğluna (Şəxsiyyət vəsiqəsinin seriyası AZE N-14609827) məxsus Nizami rayonu Tofiq Abbasov 26, mənzil 14-ün kupçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


### Balakəndə yol polisinin boğazını kəsdilər

**Azərbaycanda polis postunda dava olub. APA-nın məlumatına görə, hadisə Baş Dövlət Yol Polisi İdarəsinin Zaqatala və Balakən rayonunun sərhədində yerləşən “Katex” postunda qeydə alınıb. Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis serjantı Anar Xəlilov xidmətdə olarkən Balakən rayonu istiqamətində hərəkət edən, Bakı şəhər sakini, 1983-cü il təvəllüdlü Vüsal Elman oğlu Əhmədovun idarə etdiyi “VAZ-2107" markalı, 90 HO 877 dövlət nömrə nişanlı avtomobili yol hərəkəti qaydalarını pozduğu üçün saxlayıb.**

Buna etiraz edən sürücü ilə yol polisi əməkdaşı arasında mübahisə düşüb. Mübahisə daha sonra davaya çevrilib və V.Əhmədov A.Xəlilova xəsarət yetirib. Nəticədə polis əməkdaşı A.Xəlilov boğaz nahiyəsindən kəsilmiş xəsarətlə Zaqatala Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Həyata keçirilən tədbirlər nəticəsində hadisəni törədən V. Əhmədovun idarə etdiyi avtomobildə olan sərnişin, 1995-ci il təvəllüdlü Oqtay Kamal oğlu Qarayevdən narkotik götürülüb və hər iki şəxs saxlanılıb.

Zaqatala Rayon Polis Şöbəsindən APA-ya faktı təsdiqləyiblər. Bildirilib ki, polis əməkdaşına xəsarət yetirilməsi faktı ilə bağlı Zaqatala Rayon Prokurorluğunda, sərnişindən narkotik götürülməsi faktı ilə bağlı isə Rayon Polis Şöbəsində araşdırmalar aparılır.

### Kürdəmirdə avtomobil yolunun tikintisində dövlətə ziyan vurulduğu aşkarlandı

**Hesablama Palatası yoxlama zamanı Mollakənd-Axtarçı-Öyləqulu avtomobil yolunun tikintisində pozuntulara yol verildiyini aşkarlayıb. APA-nın məlumatına görə, Hesablama Palatasının Kollegiya iclasında “Mollakənd-Axtarçı-Öyləqulu avtomobil yolunun tikintisi” obyekti üzrə yerinə yetirilməmiş işlər üzrə ödənişlərin edilməsi, görülən işlərin yarasızlığı və bu kimi digər maliyyə pozuntusu hallarına, nöqsan və çatışmazlıqlara yol verməklə dövlətə külli miqdarda ziyan vurulması ehtimalını nəzərə alaraq nəzarət tədbiri üzrə yoxlama materiallarının “Hesablama Palatası haqqında” qanununun 2-ci maddəsinin on ikinci abzasının və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyun 103 nömrəli Fərmanının 7-ci bəndinin tələblərinə uyğun olaraq Baş Prokurorluğa göndərilməsi qərara alınıb.**

Nəzarət tədbiri üzrə müvafiq zəruri tədbirlərin görülməsi və nəticələri barədə Hesablama Palatasına məlumatların verilməsi üçün Kollegiya qərarının aidiyyəti dövlət qurumlarına göndərilməsi və audit tədbirinin nəticələri barədə məlumatın Milli Məclisinə təqdim olunması qərara alınıb.

Qeyd edək ki, Azərbaycan prezidenti İ.Əliyevin 07 mart 2012-ci il 2081 saylı sərəncamı ilə Kürdəmir rayonunda 13 kəndi birləşdirən, əhalisi 14 min nəfərdən çox, uzunluğu 28 km olan Mollakənd-Axtaçı-Öyləqulu yolunun tikintisi üçün 3 milyon manat ayrılıb.

### Bakıda iki nəfər yanaraq ölüb

**Bakıda iki nəfər bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, noyabrın 15-də Səbail rayon sakini Nazilə Yedizarova evindən termiki yanıq (isti su) xəsarəti ilə xəstəxanaya gətirilib və noyabrın 16-da orda dünyasını dəyişib.**

Bundan başqa, noyabrın 12-də yanıq xəsarəti ilə xəstəxanaya yerləşdirilən Bakı şəhər sakini Əziz Kərimov noyabrın 16-da orada ölüb.

### Gürcüstan vətəndaşı Bakıda girov götürüldü

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Milli.Az-a verilən məlumata görə, Baş Cinayət-Axtarış və Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə idarələri və Səbail Rayon Polis İdarəsinin 39-cu Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 11-dən 14-dək olan müddətdə Gürcüstan vətəndaşı Boris Maçaidzeni Bakı şəhəri ərazisindəki müxtəlif evlərdə girov saxlayıb öldürəcəkləri ilə hədələyərək, buraxılması müqabilində ailə üzvlərindən 10.000 manat tələb etmiş həmyerliləri Georgi Qatanadze, Teymurazi Kobaxidze, Mogeli Gelaşvili və Bakı şəhər sakini Rafael Xubalaşvili tutulublar.**




Yeni MÜSAVAT

Son səhifə

N 282 (5991) 18 noyabr 2014




## İzolyasiya üçün kapsul hazırladı

Nyu-Yorkdan olan tələbə maraqlı bir kəşfə imza atıb. O, insanı əhatə edən dünyadan müvəqqəti olaraq izolyasiya olunmağa yardım edən əl cihazı hazırlayıb. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər yayıb. Edern Lyu adlı tələbənin kəşfi bədənin yuxarı hissəsinə taxılan kapişonu xatırladır. Amerikalı bu kəşfi Nutshell adlandırıb. Lyunun danışmasına görə, Nutshell ideyası onun ağlına yemək zamanı gəlib. O, həmin anda vaxtın dəyəri və onun rasional istifadəsi barədə düşünüb: "Hər bir tələbə kimi mən də qaçaqaçda yeyirəm. Bu vaxt mənim ağlıma gəldi ki, lança ayırdığım 5 dəqiqəni mən həm də zehni məşğuliyyətə sərf edə bilərəm. Müəllifin sözlərinə görə, konstruksiya yemək zamanı insanı ətraf mühitdən ayırmağa, yeməyə fokuslanmağa və yuxuda meditasiyaya xidmət edir. Lyu əmindir ki, yenilik gündəlik stressin miqdarını azaldacaq.

Amerikalının şəxsi kəşfini nə zaman bazara çıxaracağı bəlli deyil. Hazırda Lyu Nyu York İnstitutu olan "School of Visual Arts"da təhsil alır. "İzolyasiya üçün kapsula" dərs tapşırıqlarından birinin edilməsi zamanı üzə çıxıb.



## Napaleonun papağı 1 milyon 884 min avrodur

Fransada keçirilən yarmarka zamanı Napaleon Bonaparta məxsus olduğu bildirilən üçbucaq papaqlardan biri satılıb. Fontebloda təşkil edilən auksion zamanı papağı 1 milyon 884 min avroya alıblar. Alıcı isə Cənubi Koreyalı bir kolleksiyaçı olub. Auksionda həmçinin knyaz Monako Alberin kolleksiyasından da bəzi predmetlər satışa qoyulub. Məlumat verilir ki, satışlar ciddi ajiotaj yaradıb. Orada ciddi biznesmenlərlə yanaşı, dünya musiqisinin və şou biznesinin tanınmış nümayəndələri də iştirak edib.

# Putin 35 min avroya "satıldı"



Rusiya prezidenti Vladimir Putinin mexaniki fiquru Köln şəhərindəki Blecker auksionunda 35 min avroya satılıb. Fiqurun start qiyməti 18 min avro olub. Alıcının adı açıqlanmır. Uzunluğu 51 santimetr olan fiquru isveçrəli usta Kristian Beyi hazırlayıb. Mexaniki Putinin fırlanan başı, şüşə gözləri var, insan kimi qara klassik kostyum, qalstuk geyinib və qaz tükündən pero ilə yazı yazır. Auksion evindən bildirilib ki, "balaca Putin"in əlləri həqiqətən də kağızın üstündə hərəkət edir. Hansısa anlaşmanı "imzalayarkən" fiqur Putin hətta razılıq əlaməti olaraq başını da tərpədir. Rusiya prezidentinin mexaniki fiqurunun auksiona çıxarılacağı hələ oktyabr ayından bəlli idi. Həmin vaxt "The Independent" qəzeti yazmışdı ki, bu kuklaya görə bir neçə milyon dollar da ödənilə bilər. Kuklanı hazırlayan ustanın adı Kristian Bayidir. Bu şəxs bahalı oyuncaqların yaradıcısıdır. Belə ki, o, fleyta çalan mexaniki yeniyetmə fiqurunun hazırlanmasında 15 min saat həsr edib və onun qiyməti 6 milyon dollar olub.

# Qadınlar kişilərdən 26 dəfə çox gülümsəyir

Türkiyəli professor Müjdə Ker Dinçer 'Ünsiyyətin qəlbi sözsüz ünsiyyət bacarıqları" adlı kitabında gülümsəmə ilə bağlı bir çox maraqlı fikirlər yazıb. Onun yazdığına görə, günlük həyat, iş tempi, imtahan stresi, psixoloji problemlər kimi səbəblər insanların ünsiyyətinə mənfi təsir göstərir. Professor deyib ki, gülüş ağıldan yox, məhz ürəkdən gəlməlidir: "Sosial məkanlarda insanlar yalnız qaldıqları vaxtla müqayisədə 30 dəfə daha artıq gülürlər. Qəhqəhə insanları bir araya gətirmək və sosial tarazlığı düzənləmək gücünə sahibdir. Qadınlar kişilərlə müqayisədə 26 dəfə artıq gülümsəyir. Çünki qadınlar gülüşün endorfini artırdığının daha çox fərqindədir. Qəhqəhələr əslində yoluxucudur. Birinin qəhqəhəsi onu eşidən şəxsin də gülməsinə səbəb olur".

Professor onu da deyib ki, gülmək damarları genişləndirir, qan dövranını sürətləndirir, viruslarla mübarizə aparan hüceyrələrin sayını artırır, qan şəkərini düzənləyir. Bundan başqa, 1 dəqiqə gülmək 10 dəqiqə kürək çəkmək qədər kalori xərcləməyimizə səbəb olur.





## Yemək yediyi üçün uşağını 4 aydır döyür

Misir sakini öz uşağı ilə qəddar münasibətinə görə həbs edilib. Həyat yoldaşı onun 4 ay boyunca qızlarına işgəncə verdiyini deyib. İşgəncəyə səbəb isə uşağın onlardan icazəsiz soyuducudan frikadelka adlanan, noxuddan hazırlanan Misir mətbəxinə aid yemək yeməsi olub. Atanın kimliyi açıqlanmır. Onun 30 yaşında olduğu və Əl Mənsur şəhərindəki yerli məscidlərdən birində çalışdığı qeyd edilir. 4 aydır döyülən uşaqda hazırda əsəb pozuntusu var və bu səbəbdən xəstəxanaya yerləşdirilib. Ata özü polisə açıqlamasında deyib ki, qızını "soyuducu oğurluğundan" çəkindirmək istəyib. Misir qanunlarına görə, uşağa qarşı qəddar davranışa görə, kişinin 1 il müddətinə azadlıqdan məhrum olması nəzərdə tutulub.




QOÇ - Saat 9-10 aralığını nəzərə almasaq, qalan saatları normal tərzdə başa vuracaqsınız. Həyatınızda mühüm rolu olmayan, sizə qarşı soyuq münasibət bəsləməyən adamların şəxsi işlərinə müdaxilə etməsəniz, kimsə sizə qarşı qərəz nümayiş etdirməyəcək.

BUĞA - Praktiki işlərə aludə olmaqdansa nəzəri fəaliyyətə üstünlük verin. İdeal planlarınızın gerçəkləşməsində bunun rolu böyükdür. Ulduzlar maddi durumunuzun qənaətbəxş olacağını da istisna etmir.

ƏKİZLƏR - Mövcud durumunuzdan usanmaq yox, aktiv surətdə çıxış yolları aramalısınız. Əgər rahatlığınızın təminatı üçün başqa yol da tapa bilmirsinizsə, saat 16-ya qədər gözləmə mövqeyində durun.

XƏRÇƏNG - Böyük sınaqlar qarşısındasınız. Hər şey atacağınız addımlardan birbaşa asılı olacaq. Bu səbəbdən də bütün məsələləri dəfələrlə götür-qoy edib sonra qərar çıxarın. Hər adama da etibar etməyin.

ŞİR - Nahara qədər ciddi işlərinizin həllini təxirə salın. Sövdələşmə və müzakirələr üçünsə ümumiyyətlə, uğursuz ərəfədir. Bu gün yalnız ailə-məişət məsələləri ilə məşğul olmalısınız.

QIZ - Maliyyə zəminində çətinliyiniz mümkündür. Amma unutmayın ki, indi çoxları sizdən də pis yaşayır. Özünüzü kontrolda saxlayın, həmkarlarınıza qarşı təmkin göstərin. Səhhətinizə də fikir verməlisiniz.

TƏRƏZİ - Saat 11-13 aralığı daxilinizdə süstlük yaratsa da, sonrakı saatlarda ovqatınızda nəzərəçarpacaq dönüş yaranacaq. Deməli, narahatlığınız əridiyi üçün müəyyən işlər də görə biləcəksiniz.

ƏQRƏB - Ulduzların düzümü böyük irəliləyişlər astanasında olduğunuzu bəyan edir. Bu gün qarşıya qoyduğunuz vəzifələrin həllində kənardan dəstək alacağınız gözlənilir. Daxili səsinizə qulaq asın.

OXATAN - Bütün astroloji mənbələr ayın ən qalmaqallı gününü yaşayacağınızı göstərir. Ələlxüsus da saat 16-18 arası hər bir davranış və ünsiyyətinizdə təmkinli olmalısınız. Sıxıntınız olsa, müqəddəs bir məkana gedin.

OĞLAQ - Bürcünüz üçün kifayət qədər aktiv gündür. Bir neçə cinahdan xeyirli gedişlər edə bilərsiniz. Belə məqamlarda etibar etdiyiniz dostlarınızın dəstəyindən yararlanmaqdan da çəkinməyin.

SUTÖKƏN - Daxili tərəddüd və nigarançılığınızı duyan Göy qübbəsi saat 14-dən başlayaraq istər qarşılıqlı münasibətlərdə, istərsə də maddi durumunuzda əsaslı dönüş yaradacaq. O vaxta qədərsə səbli olun.

BALIQLAR - Mübahisəli bir gün yaşayacağınız gözlənilir. Ələlxüsus da iş yerində belə xoşagəlməzliklər daha çox qabara bilər. Əsəblərinizi cilovlamağa çalışın. Yalnız yaxşı şeylər barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ebru Gündeş üçün 55 min manatlıq körpü



Türkiyəli iş adamı Rza Zərrabın İstanbulun Kanlıca bölgəsində yerləşən cüt villasına dəniz nəqliyyat vasitələrinin yaxınlaşa bilməsi üçün 110 min TL(55 min manat) xərcləyərək avtomatik açılıb-bağlanan elektrikli körpü hazırlatdırıb. Həyat yoldaşı Ebru Gündəşə aldığı bahalı hədiyyələr və etdiyi jestlərlə maqazin mediasının gündəmindən düşməyən iranlı iş adamı yenə də konfort üçün xəsislik etməyib. Körpünün funksiyası isə dəniz nəqliyyat vasitələrinin rahat hərəkəti üçündür. Elektriklə işləyən körpünün nərdivan funksiyası da var.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.